"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Leyla Əliyeva Ruanda Prezidenti ilə görüşüb

3

Səs

№ 231 (7156)

14 dekabr 2024-cü il.
Qiyməti 60 qəpik

2024-cü il Azərbaycan beynəlxalq tədbirlər məkanı kimi yadda qaldı



2

Əsəd rejimi və Ermənistan

6

Suriyada Bəşər Əsəd rejiminin süqutu Cənubi Qafqaz üçün daha bir böyük problemə çevrilib. 44 günlük müharibədən məğlub çıxan Ermənistanı ilk növbədə Ərəb Respublikasındakı 30 minə yaxın erməninin taleyi narahat edir.

DTX və XKX: ötən 9 il

5

Səni tərənnüm edirəm, doğma Azərbaycanım!

7

Makronun Gürcüstan fiaskosu

9

2025 hansı bürclər üçün ən uğurlu il olacaq? - DİQQƏT!

16

Oxumuruq, yoxsa oxumağa kitab tapmırıq?

10

2024-cü il Azərbaycan beynəlxalq tədbirlər məkanı kimi yadda qaldı

Beynəlxalq tədbirlərin mərkəzinə, qlobal layihələrin təşkilatçısına çevrilən güclü və qüdrətli Azərbaycan müasir dünyamızı narahat edən məsələlərin müzakirə olunmasında unikal məkandır. Azərbaycanın xarici aləmdəki mövcud nüfuzunun, gücünün göstəricisi olaraq mədəniyyətlərarası siyasi dialoqları ehtiva edən, iqtisadi əməkdaşlığa əsaslanan forumların və s. təşkili ölkəmizə həvalə olunur. Dünyanın mədəniyyət mərkəzlərindən biri kimi tanınan Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilmişdir.

Azərbaycan dövləti tərəfindən mədəniyyətlər arasında dialoqun və əməkdaşlığın təşviqinə yönələn beynəlxalq miqyaslı tədbirlər onun mədəni müxtəlifliyə dəstəyinin bariz göstəricisidir. Əlbəttə ki, Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər bəşəriyyətin təhlükəsiz gələcəyi və birgəyaşama ənənələrinə, dialoq və mədəni çeşidliliyə dəstəyin bariz nümunəsidir. Yola salacağımız 2024-cü il də bir sıra beynəlxalq tədbirlərin Azərbaycanda kecirilməsi ilə yadda qaldı. Müasir dünyamızın çağırışlarını əks etdirən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu dünyada

nüfuzu getdikcə artan və regionda aparıcı aktora çevrilən Azərbaycanın beynəlxalq nüfuzunu, beynəlxalq məsələlərin tənzimlənməsində mühüm rol oynadığını bir daha ortaya qoydu. Azərbaycan dünya ölkələri arasında mədəni əlaqələrin gücləndirilməsinə - VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edərək, dövlətlərarası münasibətlərin inkişafına yüksək önəm verdiyini bir daha ortaya qoymuş oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə əsası qoyulan "Bakı Prosesi" çərçivəsində keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyətlərarası dialoq sahəsində beynəlxalq və qlobal səviyyədə yeganə platformadır. 2010-cu ilin 23 sentyabr tarixində BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi elan edildi.

MƏDƏNİYYƏTLƏRARASI DİALOQ MƏSƏLƏLƏRİNİN MÜZAKİRƏSİ

Bakıda Dünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi ilə regional təşəbbüs qlobal hərəkata çevrildi. "Bakı Prosesi" çərçivəsində müntəzəm olaraq Azərbaycanda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, eləcə də Dünya Dini Liderlərinin Sammiti və Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının Qlobal Forumu təşkil edilib. Mayın 1-dən 3-dək Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusunda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu "Bakı Prosesi"nin tərkib hissəsi olaraq uğurla sona catdı. Bu, ölkəmizin durmadan artan beynəlxalq nüfuzuna, mədəniyyətlərarası dialoqun Azərbaycanın beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsinə dəlalət edir. Üç gün davam edən Forum 100-dən çox ölkənin nümayəndəsini bir araya gətirdi. Forumunun açılış mərasimində çıxışında Prezident İlham Əliyevin bildirdiyi kimi, "VI Mədəniyyətlərarası Dialoq Forumunda 100-dən artıq ölkənin nümayəndəsi iştirak edir. Bu, sözün əsl mənasında göstərir ki, Forum çox mühüm beynəlxalq platformadır və burada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur".

Azərbaycan özünün sülh və dinləarası dialoq müstəvidə oynamış olduğu vacib roluna görə beynəlxalq birlik tərəfindən təqdir edilir. Prezident İlham Əliyevin Forumunun açılış mərasimində çıxışında verdiyi mesajlar böyuk əhəmiyyət kəsb edir, Xalqlar və millətlər arasında dözümlülüyün və birgə yaşamanın gücləndirilməsi üçün bu cür tədbirlərin çox böyük mənası vardır. Azərbaycanın əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkan olduğunu bildirən Cənab Prezident bizim coğrafi mövqeyimizin, Şərq ilə Qərb arasında yerləşməyimizin bu tendensiyaya imkan yaratdığını diqqətə çəkib. Dövlətimizin başçısı qeyd edib ki, çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik Azərbaycan cəmiyyəti əsrlər boyu mühüm dəyərləri – tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlığı qoruyub. Tolerant mühitin məkanına çevrilən Odlar diyarımız Azərbaycan sülsevər dövlət olaraq özünəməxsus xoşməramlı mesajlarını dünya ölkələrinə göndərir. Bu mesajlarda dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr verən mövcud mühit öz əksini tapır.

"MÜSBƏT TENDENSİYALARI, MƏDƏNİ DİALOQU VƏ MƏDƏNİ MÜXTƏLİFLİYİ GÜCLƏNDİRMƏLİYİK"

Azərbaycandakı birgəyaşayış mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun olaraq möhkəmlənib, dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Azərbaycanda islam dini ilə yanaşı, xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır.

Azərbaycan daxilində mədəniyyətlərarası dialoq hər zaman müsbət olub. Prezident qeyd edib ki, multikulturalizm Azərbaycan vətəndaşları üçün hər hansı abstrakt məfhum deyil, həyat tərzidir.

Paytaxt Bakı Forum çərçivəsində dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə öz töhfəsini bir daha vermiş oldu, Sülhün qorunması, dayanıqlı inkişaf, ədalətli bölüşmə, regional rifah və inkişafda uçurumun azaldılması önəmli hədəflər sırasındadır və belə mövzuların müzakirə edilərək, mühüm qərarların qəbul edilməsi vacibdir. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

Forumda həmçinin regionda sülh müstəvisində ciddi addımların atılmasının vacib olduğu diqqətə cəkilib, Azərbaycan güclü və qalib ölkə kimi yenidən Cənubi Qafqazda münaqişə yaratmaq istəyən qüvvələrin qarşısında keçilməz səddir. Sülhün və sabitliyin təmin olunmasına, xalqların və dövlətlərin sülh şəraitində yaşamasina ölkəmiz töhfələrini verir. Dünyanın müxtəlif yerlərində müxtəlif zəmində toqquşmaların baş verdiyi halda, Azərbaycan sülhün və həmrəyliyin carçısına çevrilib. Mədəniyyətlərarası Forum, məhz belə halların qarşısının alınmasına öz töhfələrini verir.

TÜRK DÜNYASINDA BİRLİYİN MÖHKƏMLƏNMƏSİNƏ TÖHFƏ

Bu ilin yaddaqalan hadisələrindən biri də iyunun 15-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşa şəhərində Milli Qurtuluş Günü və Şuşa Bəyannaməsinin imzalanmasının üçüncü ildönümünə həsr olunmuş "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda beynəlxalq konfrans keçirildi. Tədbirin qardaş Azərbaycanın mədəniyyət beşiyi, 2024-cü ildə "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmiş Şuşa şəhərində təşkil edilməsinin xüsusi önəmi var idi. Bu konfrans Türk dünyasında hakim siyasi partiyalar arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi məsələlərinin müzakirəsi baxımından da əhəmiyyətli idi.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətində "Müasir dövrdə qlobal kataklizmlər beynəlxalq münasibətlər sisteminin geosiyasi reallıqlarından birinə çevrilmişdir. Xarici güc mərkəzlərinin təsiri və müdaxiləsi ilə dünyanın müxtəlif regionlarında çoxsaylı qarşıdurmaların – etnik və dini zəmində münaqişələrin, siyasi konfrontasiyaların baş verməsi, xaos və anarxiya mühitinin yaranması ayrı-ayrı dövlətlərə və bütövlükdə beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaratmaqdadır. Beynəlxalq hüquq normalarının kobudcasına pozulduğu və ikili standartlara əsaslanan selektiv yanaşmaların baş qaldırdığı belə bir şəraitdə milli maraqların qorunmasına hədəflənmiş və mövcud çağırışlara cavab verən siyasətin həyata keçirilməsi müstəqil dövlətlərin qarşısında duran başlıca vəzifələrdəndir. Son zamanlarda yeni strateji hədəflərə doğru inamla irəliləyərək dünya siyasətində yüksələn güc mərkəzinə çevrilən, beynəlxalq nüfuzu və geosiyasi təsir imkanları artmaqda olan Türk Dövlətləri Təşkilatında birləşən ölkələr də analoji çağırışlarla üzləşirlər. Yeni ittifaq modeli kimi dünyanın diqqət mərkəzində olan bu təşkilatda təmsil olunan ölkələrin sıx həmrəylik şəraitində dostluq və qardaşlıq prinsiplərinə, qarşılıqlı anlaşmaya, bərabərhüquqlu tərəfdaşlığa və çoxşaxəli əməkdaşlığa əsaslanan münasibətləri həm milli və regional səviyyədə, həm də qlobal miqyasda sabitliyə, təhlükəsizliyə və inkişafa xidmət edən çox önəmli amildir", — deyə bildirib. Milli Qurtuluş Günündə və Şuşa Bəyannaməsinin imzalanmasının növbəti ildönümündə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "İslam dünyasının mədəniyyət paytaxtı" Şuşa şəhərində keçirilən bu tədbir Türk dünyasında birliyin daha da möhkəmlənməsinə, yeni hədəflərin reallaşmasına dəyərli töhfələr verəcəkdir.

Ardı Səh. 3

2024-cü il Azərbaycan beynəlxalq tədbirlər məkanı kimi yadda qaldı

Əvvəli-Səh-2

Bildiyimiz kimi, türk dövlətlərinin regionda sabitliyin və sülhün qorunub saxlanılmasında rolu getdikcə artır. türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biridir. Son illərdə Türk dövlətləri arasında əlaqələr bütün sahələrdə intensiv xarakter alıb və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdirilir. Xatırladaq ki, Azərbaycanın bu istiqamətdə töhfələrindən biri də Türk Şurasının yaradılması ilə bağlı sazişin məhz ölkəmizdə imzalanmasıdır. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır.

Məlumdur ki, müasir dövrümüzdə bu təşkilat beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir. Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi haqqında qərar da məhz Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunmuşdu. Azərbaycanın qədim mədəniyyət ocaqlarından biri olan Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunması əlbəttə ki, qürurvericidir. TÜRKSOY tərəfindən Şuşanın 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi Türk-İslam dünyasının Azərbaycanın qədim şəhərinin mədəni zənginliyinə diqqətinin göstəricisidir.

TDT-yə üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması, onların bir-birini qarşılıqlı şəkildə dəstəkləməsi təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir. Belə ki, hələ 2020-ci ildə Vətən müharibəsi zamanı bəziləri hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmasına baxmayaraq, türk dövlətləri Azərbaycanın haqlı mübarizəsinə öz dəstəklərini verdilər. 2020-ci il türk dünyası üçün yadda qalan oldu. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir.

Azərbaycan tarixi Zəfərdən sonra azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini davam etdirir. Zəfər qazanan Azərbaycan Qarabağımızda, Şərqi Zəngəzurda böyük quruculuq işlərini davam etdirir. Bildiyimiz kimi, üzv dövlətlər Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda apardığı bərpa-yenidənqurma işlərinə də öz töhfələrini verirlər. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük: "Təbii ki, bu, həm bizi sevindirir, həm də bütün Türk dünyası ölkələrinin bir-birinə nə qədər bağlı olmasından xəbər verir".

YAŞIL PROQRAMLA BAĞLI MƏSƏLƏLƏRƏ AZƏRBAYCAN PLATFORMASINDAN BAXILDI

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a Azərbaycanın ev sahibliyi etməsi Azərbaycanda hökm sürən sabitliyin, təhlükəsizliyin göstəricisidir. COP29-un təşkilinə bir ildən də az vaxt olmasına baxmayaraq, Azərbaycan bu tədbirin yüksək səviyyədə keçirilməsinə nail oldu. Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğuru kimi, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi etməsi ölkəmizin nüfuzunun daha bir göstəricisidir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının nümunəsidir.

Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı zamanı bildirdiyi kimi, 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək fürsəti nəsib oldu: "Bu, bizim ölkəyə hörmət əlamətidir və bizim fəal rolumuzun beynəlxalq arenada qiymətləndirilməsi deməkdir".

Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkə olan Azərbaycan beynəlxalq aləmdə siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpüləri yarada bilmişdir. "Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib", - deyən Prezident çıxışında dünya üçün aktuallığı heç vaxt olmadığı qədər artan iqlim çağırışlarına Azərbaycanın həssas yanaşmasını, ölkəmizin qlobal təhdidlər qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsi təşəbbüslərindən çıxış etdiyini də iştirakçıların diqqətinə çəkib.

COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasından baxılıb. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı prioritet sahə kimi qəbul etdiyini bütün dünyaya göstərə bilir. COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir.

Dünyanın iqlimlə bağlı ciddi təhlükələrlə üzləşdiyi şəraitdə Azərbaycanın belə bir tədbirə ev sahibliyi etməsi beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə yönəltdi. Bütün vasitələrdən istifadə edərək COP29-a qarşı boykot kampaniyası həyata keçirməyə cəhd etsələr də Azərbaycan uğurla bu tədbirə ev sahibliyi etdi. "Mənim sonuncu mesajım o dairələrədir ki, onlar demək olar, artıq bir ildir boykotu təşviq edirlər", - deyən Prezident bildirib ki, bizim 196 ölkədən 72 min qeydiyyata alınmış iştirakçımız var. Onların arasında 80 Prezident, Vitse-prezident və Baş nazir var.

COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi tarixiləşdi. İqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq COP29 çərçivəsində Azərbaycan gündəliyinin yaşıl enerji ilə bağlı olmasını bir daha sərgilədi.

Nəzakət ƏLƏDDİNQIZI

Leyla Əliyeva Ruanda Prezidenti ilə görüşüb

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dekabrın 13-də Kiqali şəhərində Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Ruanda Prezidentinə çatdırıb.

Görüşdə iki ölkə arasında əlaqələr, o cümlədən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub. İkitərəfli əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayan Leyla Əliyeva Afrika ölkələrində təhsil və mədəniyyət sahələrinin inkişafı istiqamətində layihələrin, təhsil üzrə mübadilə proqramlarının həyata keçiriləcəyini, incəsənət nümunələrinin beynəlxalq layihələrdə birgə təqdimatı üzrə əməkdaşlıq ediləcəyini bildirib.

Noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakıya səfər etdiyini qeyd edən Ruanda Respublikasının Prezidenti Pol Kaqame tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü xatırladan Pol Kaqame göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdən gözəl təəssüratlarla ayrıldığını deyib.

Pol Kaqame ölkəmizin, o cümlədən Heydər Əliyev Fondunun dəstəyi ilə Ruandada həyata keçirilən təhsil və mədəniyyət sahəsindəki layihələrə görə təşəkkür edib. Bu günlərdə Ruandada Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Baş Assambleyasının iclasının keçirildiyini qeyd edən Pol Kaqame Azərbaycanın beynəlxalq layihələrə, o cümlədən dünya əhəmiyyətli idman yarışlarına, xüsusilə Formula 1 yarışına uğurla ev sahibliyi etdiyini vurğulayıb. Gələcəkdə Formula 1 yarışının Ruandada da keçiriləcəyinə ümidvar olduğunu deyən Prezident Pol Kaqame bu istiqamətdə Azərbaycan Avtomobil Federasiyasının dəstəyinə böyük önəm verdiyini bildirib.

Görüşdə Ruanda Respublikasının Prezidentinə Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşri - "Azərbaycan. Təbiətin sehrində" kitabı təqdim edilib.

Müstəqil Azərbaycan ordusunun qurucusu Dahi Şəxsiyyat

Müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu olaraq çağdaş tariximizə möhrünü vuran Ulu Öndər Heydər Əliyevin məqsədyönlü siyasəti və əzmkar fəaliyyəti nəticəsində ölkəmiz müasir, demokratik, hüquqi və dünyəvi dövlət olaraq yüksək imicə sahibdir. Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin inkişafı, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin ilk illərinə diqqət yetirsək, ictimai-siyasi vəziyyətin gərginliyini və belə bir zamanda, Azərbaycanın uçurum qarşısında olduğunu daha aydın görmək olur. Ölkədə xaos, anarxiya və özbaşınalıq baş alıb gedirdi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın qarşısında yeni-yeni imkanlar açdı və uğurların təməlini qoydu. Əlbəttə ki, bu gün böyük fəxarətlə söz açdığımız uğurların yolu çətin, ağır və məşəqqətli yoldan başlanıb. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı yenicə qazanılmış, dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan ölkəmizin ictimai-siyasi və iqtisadi-hərbi problemlərinin uğurlu həlli ilə tarixi hadisəyə çevrildi. Böyük Şəxsiyyət olmasaydı, Azərbaycanı heç bir qüvvə qurtara bilməzdi. Qardaş qırğını səviyyəsinə qalxmış qarşıdurmanı dayandıraraq, ölkəni sabit inkişaf və tərəqqi yoluna çıxarıb. Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasının əhəmiyyətini dərindən başa düşən Azərbaycan xalqı tezliklə Onu əvvəlcə Milli Məclisin Sədri, bir neçə aydan sonra isə Prezident seçilməsini dəstəkləyib. Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə və beynəlxalq aləmdə böyük nüfuza malik Ulu Öndər Heydər Əliyev nəinki ölkə daxilində qarşıdurmanı dayandırıb, həmçinin Ermənistanın işğalçı siyasətinin qarşısını alaraq, atəşkəsə nail olub. Bu isə Azərbaycana gərgin vəziyyətdən çıxmağa və sivil inkişaf yolu ilə addımlamağa imkan yaradıb. Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur.

HƏRBİ XİDMƏTƏ MÜNASİBƏTDƏ YENİ BAXIŞ

Sovet məkanında yaşadığımız dövrdə Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin ən mühüm və ən əhəmiyyətli uğurlarından biri azərbaycançılıq məfkurəsinin, milli özünüdərkin inkişafı oldu. Milli mənafelər üzərində qurulan Heydər Əliyev idarəçiliyi Azərbaycanın milli inkişaf strategiyasının təməlini qoymaqla milli şüurun inkişafına təsir göstərmişdir. Bütün mənalı ömrünü Azərbaycan xalqının tərəqqisinə həsr etmiş Ulu Öndər Heydər Əliyev özünün əməli fəaliyyəti ilə doğma xalqının əbədi məhəbbətini qazanaraq əsl Ümummilli Liderə çevrilmişdir. Ulu Öndər həmişə xalqla birgə olduğunu, onun taleyi ilə yaşadığını tarixi xidmətləri ilə sübut etmişdir.

Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də onun silahlı qüvvələridir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında azadlıq və müstəqillik ideyalarının tam təmin olunması naminə hazırlanan ordu quruculuğu prosesinə xüsusi önəm yetirilirdi. Vurğulamaq yerinə düşər ki, milli ordu quruculuğu sahəsində Ümummilli Lider Heydər Əliyev hələ Sovetlər dövründə müstəqil olmadığı zaman Azərbaycanın qəhrəmanlıq ənənələrinin davam etdirilməsini, zəngin hərb tarixinin canlandırılmasını, gənclərin qəhrəmanlıq ənənələri əsasında tərbiyə edilməsini, görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsini hər zaman diqqət mərkəzində saxlayırdı. Bunun nəticəsi idi ki, Sovet illərində Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı.

ORDU QURUCULUĞUNDA ƏSASLI DÖNÜŞ

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ermənistan ilə müharibə vəziyyətində idi. O zaman Azərbaycana rəhbərlik edən şəxslər Silahlı Qüvvələr yarada bilmədilər. 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması haqqında qanunun qəbul edilməsinə baxmayaraq, o zamankı respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün ciddi səy göstərmirdi. Yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və Azərbaycan Respublikasının Prezidenti seçilməsi vəziyyəti kökündən dəyişdi, respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi. Məhz Ulu Öndər Heydər Əliyevin 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, 20 avqust 2001-ci ildə respublikamızda fəaliyyət göstərən hərbi məktəblərin statusunun artırılması və nəhayət, 17 avqust 2002-ci ildə Silahlı Qüvvələrə Yardım Fondunun yaradılması haqqında imzaladığı fərmanlar bu istiqamətdə əsaslı dönüş yaratdı. Bütün bunların nəticəsidir ki, hazırda Azərbaycanda güclü maddi-tədris bazasına, müasir texnologiyalara malik, yeni tədris metodları ilə fəaliyyət göstərən, uğurları ölkəmizin sərhədlərindən də uzaqlara yayılan hərbi təhsil sistemi mövcuddur.

CƏNUBİ QAFQAZ REGİONUNDA ƏN GÜCLÜ ORDU

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti son 21 ildə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoydu, prioritet elan edilən ordu quruculuğu sayəsində ərsəyə gələn nizami Azərbaycan Ordusu dövlətçiliyimizin qarantı olmaqla yanaşı, ölkəmizin dünya miqyasında maraq və mənafeyinin, milli təhlükəsizliyinin lazımi səviyyədə qorunmasını təmin etməyə imkan yaratdı. Respublikamızda müdafiə sənayesi kompleksinin yaradılması, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, ordu birləşmələrimizin ən yeni hərbi texnika və avadanlıqlarla təchiz edilməsi, şəxsi heyətin döyüş qabiliyyətinin və peşəkarlıq səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması qarşıya qoyulan vəzifələrin məzmunu ilə düzgün əlaqələndirildi, zaman və məkan amillərindən səmərəli istifadə edilməklə böyük ZƏFƏRƏ addım - addım yaxınlaşdırmaq mümkün oldu.

Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam - intizama malik bir quruma çevrilib. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkəmizdə yaradılan 20-dən çox hərbi zavodda müxtəlif adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilmişdi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu göstərdi. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Beləliklə, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevincini yaşatdı.

HAQQ VƏ ƏDALƏTİN ZƏFƏRİ

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə Zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir Yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Qəhrəmanlıq dastanını yazan rəşadətli Ordumuzun Vətən müharibəsində nümayiş etdirdiyi hərb mədəniyyəti, beynəlxalq və humanitar qanun və normalara riayət etməsi dünya hərb tarixinə örnək səhifələr kimi yazıldı. Döyüş meydanında əməli təsdiqini tapan "Qarabağ Azərbaycandır və nida" həqiqəti milli birliyimizin, haqqın və ədalətin Zəfəri oldu. Rəşadətli Azərbaycan Ordusu düşmənin ən möhkəm istehkamlarını qəhrəmancasına darmadağın edərək, düşmən tapdağında olan ərazilərimizi, 28 il həsrət qaldığımız qədim Şuşamızı öz canı və qanı bahasına azad etdi. Həmçinin, bir güllə atmadan, bir şəhid vermədən Ağdam, Kəlbəcər və Laçın işğaldan azad edildi. Düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı. Prezident İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Azərbaycanın haqq və ədalət uğrunda apardığı Vətən müharibəsi, onun taktika və strategiyası, istifadə edilən müasir hərbi texnologiyaları bu gün bir sıra inkişaf etmiş ölkələrdə və beynəlxalq təşkilatlarda tanınmış hərbi ekspertlər tərəfindən müasir hərb elminin yeni səhifəsi adlandırılır. Ermənilərin qoyub qaçdığı hərbi texnikalar, silah-sursatlar bu gün Hərbi Qənimətlər Parkında nümayiş olunur. Vətən müharibəsində qazanılan ZƏFƏR bütün türk dünyasının qələbəsi olaraq dünyaya mesaj oldu.

Bu gün hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ordumuz var ki, bu ordunun formalaşması əlbəttə ki, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Zümrüd BAYRAMOVA

DTX və XKX: ötən 9 il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 dekabr 2015-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin əsasında yaradılmış Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti ölkə üçün böyük əhəmiyyət kəsb edən iki qurumdur. Ötən 9 ildə ölkənin təhlükəsizliyini göz bəbəyi kimi qoruyan, gecə-gündüz, hər dəqiqə, hər saniyə çiyinlərində bu böyük məsuliyyəti daşıyan, fəaliyyətləri ilə qürur duyduğumuz Vətən övladlarından və həmin qurumlardan danışaq...

Onlar təhlükəsizliyin təminatçısıdır

Ölkə o zaman möhkəm əsaslara dayanır, o zaman güclü, xalq üçün təhlükəsiz ünvana çevrilir ki, həm daxildən, həm də xaricdən qorunur. Dövlətə qarşı hər hansı bir təhdidin, planın qarşısı vaxtında alınırsa, bu, hər dəfə dövlətin, dövlətçiliyin, həm də xalqın üzərindən təhlükənin sovuşması deməkdir. Bu, hər dəfə yeni bir qələbədir.

Elə bütün bunlara görə idi ki, ölkəmizdə ilk dəfə 1918-ci ildə müstəqillik əldə ediləndən sonra- 28 mart 1919-cu ildə ilk milli təhlükəsizlik orqanı yaradılmışdı. Və Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun əmri ilə nazirlik tərkibində kəşfiyyat və əks-kəşfiyyat bölməsi təşkil edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi 23 ay ərzində dövlət quruculuğu sahəsində xeyli iş görülmüşdü. Xüsusilə Milli Ordunun təşkili diqqətdə saxlanılmış, bu prosesdə general Səməd bəy Mehmandarov, general Əli Ağa Şıxlinski və general Məmməd bəy Sulkeviç xüsusi rol oynamışlar. Həmin sərkərdələrin rəhbərliyi ilə ordu quruculuğu işi 1920-ci ilin yanvarında artıq başa çatdırılmışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizliyinin təmin edilməsi missiyasını da ilk zamanlar ordu öz üzərinə götürmüş və bölmə (Hərbi Nazirliyin Baş Qərargahının general-kvartirmeystr şöbəsinin kəşfiyyat və əks-kəşfiyyat bölməsi) halında bu işin öhdəsindən bacarıqla gələ bilmişdi. Beləliklə, Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğundan, Milli Təhlükəsizlik Nazirliyinin də bir əsrdən artıq yaşı var.

Sovet Rusiyasının Azərbaycanı ilhaq etməsi ilə Xalq Cümhuriyyətinin təşkil etdiyi bu kimi işlər də yarımçıq qalmış, ölkəmiz 70 illik bir əsarətə sövq edilmişdir. Həmin 70 ildə isə haqqında danışdığımız qurum tamamilə başqa istiqamətdə fəaliyyət göstərmişdir. Sovet dövründə qurum əvvəlcə Fövqəladə Komissiya ("ÇK") adlanıb, bir müddət Daxili İşlər Xalq Komissarlığının tərkibində fəaliyyət göstərib, sonra Dövlət Təhlükəsizlik Komitəsi təşkil olunub.

DTK-da ilk azərbaycanlı

Bu qurum hər bir azərbaycanlı üçün həm də ona görə doğmadır ki, 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş Heydər Əliyev 1944-cü ildən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş, 1950-ci ildə Leninqradda Ali çekist məktəbini əla qiymətlərlə başa vurduqdan sonra dövlət təhlükəsizliyi orqanlarının mərkəzi aparatında bölmə rəisi vəzifəsinə təyin edilmişdir. 1953-cü ildə isə əks-kəşfiyyat şöbəsinin rəisi vəzifəsinə irəli çəkilmiş və bu vəzifədə 10 il səmərəli fəaliyyətindən sonra, 1964-cü ildə DTK sədrinin birinci müavini, 1967-ci ildə isə DTK-nın sədri təyin edilmişdir. Beləliklə, xalqımızın Ümummilli Lideri Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarında uzun illər qüsursuz, özünəməxsus, peşəkar, məsuliyyətli və məhsuldar fəaliyyət göstərən ilk azərbaycanlı olub.

Azərbaycana rəhbərliyinin hər iki dövründə müşahidə etdiyimiz nüanslar Ulu Öndərin DTK-da çalışdığı illərdə də eynilə olmuşdur. Ölkədə təhlükəsizliyin təminatında Azərbaycanın milli maraqlarının ön plana çəkilməsi, milli kadrların rəhbər vəzifələrə təyinatı, gənc işçilərin xüsusi ali təhsil almasına şərait yaradılması Onun prinsipi olmuşdur. Sonralar bunu digər sahələrə də tətbiqində, gənclərin xaricdə təhsil almağa, gənc kadrların ixtisasartırma kurslarına göndərilməsində gördük.

Azərbaycan Respublikası 1991-ci ilin oktyabr ayında özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra Dövlət Təhlükəsizlik Komitəsinin maddi-texniki və kadr bazası əsasında 1991-ci il noyabr ayının 1-dən Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi təsis edilmişdi. Lakin 1990-1993-cü illərdə ölkədə xaos, anarxiya hökm sürürdü və dövləti idarə edən sərişdəsiz rəhbərliyin kadr siyasəti o qədər səhv idi ki, bütün sahələrdə bir durğunluq hiss olunurdu. Yəni həmin illər ölkədə baş verən bütün proseslər onu göstərirdi ki, dövlət idarəçiliyində böyük bir boşluq var.

Ulu Öndər Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra isə bütün sahələr kimi, Milli Təhlükəsizlik Nazirliyinin də fəaliyyətində böyük dəyişiklik oldu. Çünki Heydər Əliyevin bu sahədə 25 illik təcrübəsi var idi və bu təcrübə də ölkədə təhlükəsizlik orqanlarının fəaliyyətinin müasir dövrün çağırışlarına uyğun qurulmasına zəmin yaradırdı. Beləliklə, 1993-cü ildən sonra Milli Təhlükəsizlik Nazirliyi Prezident Heydər Əliyevin yeni konsepsiyası əsasında quruldu, 1997-ci il 23 mart tarixli Fərman ilə 28 mart – Milli təhlükəsizlik orqanları işçilərinin peşə bayramı günü elan olundu. Ulu Öndərimiz müstəqil Azərbaycana rəhbərlik edəndə də ölkəmizin təhlükəsizlik orqanları üçün milli kadrların hazırlanması məsələsinə xüsusi diqqətlə yanaşaraq 1998-ci il dekabrın 1-də Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması barədə Sərəncam imzaladı.

Təhlükəsiz dövlət naminə

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanın gələcəyi üçün hazırladığı milli inkişaf strategiyası sonrakı mərhələdə dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin yaradılması da dövlətin təhlükəsizliyinin təmin olunması, onun həm daxildən, həm də xaricdən qorunması, müasir dövrün tələblərinə cavab verməsi nöqteyinəzərindən böyük əhəmiyyətə malikdir.

DTX-nın fəaliyyətinin hüquqi əsasını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyası Ulu Öndərin təkmil şəkildə ortaya qoyduğu ümumi hüquq toplusudursa, "Milli təhlükəsizlik haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Dövlət sirri haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunları və digər qanunvericilik aktları müstəqillik illərində, xüsusilə son 20 ildə bu sahənin inkişafını müəyyənləşdirən əhəmiyyətli dövlət sənədləridir.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Əsasnaməsi, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, fəaliyyətə aid qanunvericiliyə əsasən qəbul olunmuş mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları, habelə Azərbaycan Respublikasının qanunları çərçivəsində Azərbaycan Respublikası tərəfindən bağlanmış beynəlxalq müqavilələrin hər biri insan və vətəndaş hüquq və azadlıqlarına riayət, humanizm, dövlət və cəmiyyət qarşısında cavabdehlik prinsiplərinə əməl olunması ilə bu qurumun fəaliyyətini əsaslandırır.

DTX ilə eyni gündə fəaliyyətə başlayan Xarici Kəşfiyyat Xidməti müstəqil Azərbaycanın tarixində bir ilk olmaqla, eyni zamanda müasir dövrün tələbləri baxımından yaradılması zəruri olan bir qurum idi. Elə yeni dövrün tələblərini nəzərə alan ölkə başçısı dövlətimizin daha möhkəm əsaslarla qorunmasında, təhlükəsizliyinin təmin olunmasında böyük əhəmiyyətə malik bu qurumun yaradılmasına göstəriş vermişdir. Fəaliyyəti əsasən xarici dövlətlərin ərazisində, onların xüsusi xidmət orqanlarında, siyasi dairələrində dövlətin təhlükəsizliyini təmin etmək istiqamətində əməliyyat tədbirləri həyata keçirmək olan Xarici Kəşfiyyat Xidmətinin əsas məqsədi dövlətin təhlükəsizliyi üçün təhdid ola biləcək bu və ya digər addımların dövlətin ərazisindən kənarda, onların planlaşdırıldığı, hazırlandığı yerlərdə qarşısını almaqdır.

Bu quruma tabe olan ən gizli xüsusi bölmə "Yarasa" Xüsusi Təyinatlı Dəstəsinin hərbi qulluqçuları 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Qubadlı şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə düşmənlə mübarizə aparmışlar. Əsas fəaliyyəti Ermənistan Ordusunun arxa cəbhəsində olan bölmə ilə ilk dəfə Qarabağ Zəfərindən sonra dekabrın 10-da Bakıda keçirilən Zəfər Paradında tanış olduq. Və "Yarasa" Xüsusi Təyinatlı Dəstəsinin parad zamanı meydandan səf-səf keçməsi ilə qürur duyduq. Bu Vətən övladları qəhrəmanlığı, vətənpərvərliyi, öz vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirmələri ilə hər bir gəncə nümunədirlər. Bu gün Azərbaycanda onların yolu ilə getmək arzusunda olan minlərlə gənc var.

Dövlətimizin təhlükəsizliyi keşiyində duranlarla qürur duyuruq

Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti müstəqil dövlətimizin ərazi bütövlüyünün, təhlükəsizliyinin, vətəndaşların hüquq və azadlıqlarının təminatçısı olan qurumlardır. Bu gün Azərbaycan konstitusiya quruluşunu və ərazi bütövlüyünü tamamilə bərpa edən, 30 illik işğala son qoyan, düşməni Vətən torpaqlarından qovmaqla ləyaqət və şərəfini xilas edən bir dövlətdir. Buna isə illərin zəhməti, həyata keçirilən böyükmiqyaslı işlərlə nail olmuşuq.

***

Bəlkə də çoxumuza elə gəlir ki, əmin-amanlıq, sabitlik, torpaqların işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası ardıcıl, öz-özünə həyata keçən proseslərdir. Xeyr, elə deyil. Bu Vətənin gecə-gündüz müdafiəsində dayananlar var, onu göz bəbəyi kimi qoruyanlar var. Bu Vətən üçün həm daxildən, həm xaricdən yarana biləcək hər hansı təhlükənin qarşısını alanlar var. Biz evlərimizdə rahat yatarkən gözünə yuxu getməyənlər var. Bizim heç ağlımıza gələ bilməyən bir formada Vətəni və bizi, hüquqlarımızı qoruyanlar var. Onlardan ikisi- Dövlət Təhlükəsizlik Xidməti və Xarici Kəşfiyyat Xidməti haqqında danışdıq. Hansı ki, 14 dekabr bu qurumların yaranması günüdür. Hər iki qurumun əməkdaşlarını da bu münasibətilə təbrik edir, fəaliyyətlərində uğur arzulayırıq. Biz dövlətimizin təhlükəsizliyi keşiyində duranlarla qürur duyuruq.

Mətanət Məmmədova

Əsəd rejimi və Ermənistan

Suriyada Bəşər Əsəd rejiminin süqutu Cənubi Qafqaz üçün daha bir böyük problemə çevrilib. 44 günlük müharibədən məğlub çıxan Ermənistanı ilk növbədə Ərəb Respublikasındakı 30 minə yaxın erməninin taleyi narahat edir. Bundan başqa, Azərbaycan Suriya hadisələrində açıq-aydın həlledici rol oynayan qardaş Türkiyənin növbəti uğurundan məmnundur və onun regionda daha da güclənməsini səbirsizliklə gözləyir.

Dəməşqdə yaşayan ermənilər deyirlər ki, yaraqlılar Türkiyə bayraqları ilə şəhər küçələrində maşınla dolaşır, yanacaqdoldurma məntəqələri türk lirəsini qəbul etməyə başlayıb. Amma ümumilikdə vəziyyət paytaxtın tutulması zamanı olduğundan daha sakitdir. Ən azından atışma səsini eşitmirsən. Bununla belə, vəziyyət qeyri-müəyyən olaraq qalır. Ermənilər hesab edirlər ki, islamçılar xristianlara zərər verməyəcəklərinə söz versələr də, onların gələcəkdə necə davranacaqları məlum deyil.

Ümumilikdə Suriyada 30 minə yaxın erməni yaşayır. Ötən həftə yaraqlıların sürətli irəliləyişindən xəbər tutandan sonra onların çoxu Ermənistan hakimiyyətindən ölkəni tərk etmələrinə kömək etməyi xahiş ediblər. Lakin Cənubi Qafqaz respublikasının səfirliyi Livana təxliyə edilib və Xarici İşlər Nazirliyi hələlik təhlükəsiz çıxış imkanının olmadığını bildirib. Eyni zamanda, Erməni Apostol Kilsəsinin Kilikiya Katolikosluğunun Beriya yeparxiyasının rəhbəri, arxiyepiskop Makar Aşkaryan Suriya ermənilərini təmkinli və diqqətli olmağa, yalnız lazım gəldikdə evi tərk etməyə çağırıb.

Azərbaycan Xarici İşlər Nazirliyi Suriyadakı vətəndaşları ilə bağlı heç bir məlumat almadığını bəyan edib. Eyni zamanda, erməni mənbələri yazır ki, islamçılar əvvəllər kürdlərin nəzarətində olan Mənbic şəhərini ələ keçirdikdən dərhal sonra Türkiyənin TRT Haber telekanalı müxalifət tərəfdarları ilə müsahibə götürüb, onların arasında Azərbaycan bayrağı və "Qarabağ" yazısı olan köynək geyinmiş bir gənc də var. Ekspertlər əmindirlər ki, Suriya hadisələri Cənubi Qafqaza da təsir edəcək. Beləliklə, "Atlas" Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu gözləyir ki, Türkiyə və onunla birlikdə Azərbaycan da regionda təsirini gücləndirəcək, Ermənistan üçün isə Əsəd rejiminin süqutu növbəti məğlubiyyətdir.

"Bəşər Əsəd rejimi ikinci Qarabağ müharibəsində Ermənistanı dəstəkləyib. 2020-ci ildə Əsədin nəzarətində olan parlament erməni soyqırımını tanıyan qətnamə qəbul edib. "Ermənistanın problemləri bizə yad deyil və biz Ermənistanı dəstəkləyirik", - Bəşər Əsəd ötən ilin noyabrında Dəməşqdə qəbul etdiyi Ermənistan parlamentinin vitse-spikeri Hakob Arşakyanla görüşündə deyib. Bu nöqteyi-nəzərdən onun rejiminin süqutu və Türkiyənin Suriyada mövqelərinin güclənməsi Azərbaycanın maraqlarına cavab verir", - Şahinoğlu deyir. Bundan əlavə, ekspert gözləyir ki, indi Türkiyə və Azərbaycan üçün Ermənistanın sülh müqaviləsi imzalamasına nail olmaq daha asan olacaq. "İrəvan Türkiyə ilə sərhədi açmaq və onunla əlaqə qurmaq lazımdır. Yeni şəraitdə bu, ondan daha vacib olmalıdır. Ankara buna qarşı deyil, tələb ki, Ermənistan və Azərbaycan sülh müqaviləsi imzalasın", - deyə Şahinoğlu bildirib.

Öz növbəsində Qafqaz İnstitutunun elmi işçisi Qrant Mikaelyan qeyd edib ki, Suriya münaqişəsinin həllində ilk növbədə Türkiyə, Rusiya və İran iştirak edib. Onlar həm də Cənubi Qafqazın əsas aktorlarıdır, o cümlədən birgə "3+3" platforması yaratmağa çalışırlar. Bundan əlavə, Mikaelyanın nöqteyi-nəzərindən region getdikcə daha böyük Yaxın Şərqin bir hissəsinə çevrilir, xüsusən də Ermənistan və Azərbaycanda. "İlk növbədə açıq şəkildə demək lazımdır ki, Rusiya və İran Suriyada ciddi məğlubiyyətə uğradılar. Türkiyə isə əksinə, böyük bir qələbə qazandı. Təbii ki, Suriyada baş verənlərin hamısı Ankara ilə bağlı deyil, lakin bu, böyük ölçüdə onun uğurudur və sadəcə hansısa təsadüf deyil. Türkiyə hakimiyyəti açıq şəkildə uzun müddətdir ki, bunun üzərində işləyir. Cənubi Qafqazda bu, hazırda dolayı yolla da olsa, artıq birbaşa yox, Rusiyanın effektivliyindən və uğurundan asılı olan Ermənistan üçün xüsusilə vacibdir. İrəvan Türkiyədən özünə qarşı yeni hərbi eskalasiya riskini nəzərdən keçirir. Üstəlik, bundan Azərbaycan da qazanacaq, amma dolayı yolla", - deyə Mikaelyan xəbərdarlıq edib.

Suriyadan olan qaçqınlara gəlincə, onlar yenidən Ermənistana köçməyə çalışacaqlar, ekspert hesab edir. Yada salaq ki, 2013-cü ilin məlumatlarına görə, Ərəb Respublikasından ölkəyə 14,7 minə yaxın insan gəlsə də, 2015-ci ildə 3 mindən bir qədər çox adam rəsmi qeydiyyatdan keçib. Rəsmi İrəvanın onları öz yerinə dəvət etməməsinə baxmayaraq, yenə də bəziləri gələcək. Keçən dəfə olduğu kimi, hakimiyyət insan axınının öhdəsindən gələ bilmir, ona görə də onların çoxu başqa yerə gedəcək".

MDB Ölkələri İnstitutunun Avrasiya inteqrasiyası və ŞƏT-in inkişafı departamentinin rəhbəri Vladimir Evseev hesab edir ki, Türkiyənin Yaxın Şərqdə güclənməsi Cənubi Qafqaza ancaq dolayı yolla təsir edəcək. Eyni zamanda, region yüksək dinamika vəziyyətindədir, ona görə də istənilən yeni dəyişənlər mühüm rol oynaya bilər. "Bəlkə də nəzərə alsaq ki, Moskva artıq Dəməşqin taleyi ilə bağlı Ankara ilə mübahisə etməməlidir, onlar üçün ortaq dil tapmaq daha asan olacaq. Eyni zamanda, Tehran bu dialoqdan kənarda qalacaq, çünki Türkiyə hakimiyyəti heç vaxt iranlı həmkarlarını özlərinə bərabər saymayıb. Bu, ilk növbədə, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və Zəngəzur dəhlizinin açılması kontekstində vacibdir. Ermənistanla Azərbaycan arasında sərhəd olmadığını nəzərə alsaq, münaqişənin yeni eskalasiyasını istisna etmək olmaz. Eyni zamanda, İrəvan Ankara ilə diplomatik əlaqələr qurmağa çalışır və Əsəd rejiminin süqutundan sonra bu istiqamətdə səylərini artıra bilər", - deyə Evseev bildirib.

Eyni zamanda, o, hesab edir ki, Gürcüstan hələ də öz siyasi böhranını həll etmək üzərində cəmlənib. Sonra o, Qərb ölkələri ilə diplomatik münasibətləri bərpa etməyə başlayacaq. Beləliklə, yaxın gələcəkdə Tiflisin Əsədin devrilməsinin nəticələrini görməyə vaxtı olmayacaq. "Ancaq Abxaziyada problemlər yarana bilər. Ötən əsrdə Suriyaya köçmüş abxazlar var. Əgər onlardan ən azı bir neçə yüz nəfəri öz tarixi vətənlərinə qayıtmaq qərarına gəlsə, bu, Suxum üçün ciddi problemə çevriləcək. Birincisi, respublikanın qaçqınları dəstəkləmək üçün vəsaiti yoxdur. İkincisi, bu insanlar əslində öz köklərindən qopublar və konkret həyat təcrübələri var", - ekspert qeyd edib.

V.VƏLİYEV

BİZİM MEDİA



Səni tərənnüm edirəm, doğma Azərbaycanım!

Azərbaycan vokal məktəbinin təkrarsız nümayəndələrindən olan zəngin çalarlı, bənzərsiz səsi ilə ürəkləri riqqətə gətirən Rəşid Behbudov 1915-ci il dekabrın 14 - də Tiflisdə dünyaya göz açıb. Rəşid Behbudov uşaq yaşlarından məktəb xorunda oxuyub. Kasıb bir ailədə dünyaya gələn Rəşid Behbudov ailəsinə kömək üçün 12 yaşından işləməyə başlayıb.

1933-cü ildə Dəmiryolu Texnikumuna daxil olur. Təhsil aldığı illərdə tələbə özfəaliyyət orkestrində çalışır. Hərbi xidmət zamanı ordu ansamblında solistlik edir. Həmin illərdə Tiflisdə "Teo-az" adlı kiçik ansambl yaradır. Cəbhədə konsertlər verir. Bakıda qastrol səfərində olanda burada qalmaq qərarına gəlir.

AZƏRBAYCAN KİNEMATOQRAFİYASININ TƏNTƏNƏSİ

Çox keçmir ki, Rza Təhmasib istedadlı gənci "Arşın mal alan" filminə dəvət edir, 1945-ci ildə arşınmalçı rolunda çəkilir və bu film ona böyük şöhrət gətirir. Filmin ssenari müəllifi Sabit Rəhman "Azərbaycan kinematoqrafiyasının təntənəsi" məqaləsində aktyorun rolunu belə qiymətləndirib: "Əsgər rolu Rəşid Behbudovun ilk roludur. Rəşid öz gözəl, lirik səsilə estrada səhnəsində SSRİnin bir çox şəhərlərində sevilmiş, alqışlanmışdı. Əsgər onun ilk rolu olmasına baxmayaraq, Behbudovun bir kino aktyoru kimi böyük ümidlər verdiyini göstərir".

R.Behbudovun Azərbaycan milli kinematoqrafiyasının inkişafında xidmətləri təkcə "Arşın mal alan" kinokomediyası ilə bitmir. O, həmçinin "Bəxtiyar" filmində, "1001-ci qastrol", "Doğma xalqımıza", "Toyda görüş", "Abşeron ritmləri" film-konsertlərində və bir çox sənədli filmlərdə, kinojurnallarda çəkilir. 1951-ci ildə Rəşid Behbudov Çinə qastrol səfərinə gedir. Bu ölkədə "Arşın mal alan" filmi "Örtüksüz məhəbbət" adı ilə nümayiş etdirilərək çox məşhurlaşmışdı. Rəşidi orada hamı tanıyır, məşhurluq onu addımbaşı izləyirdi. "Bəxtiyar" filmi isə bu populyarlığın yeni dalğası idi.

ESTRADA JANRININ İNKİŞAFINDA YENİ DÖVR

1945-ci ildən başlayaraq Rəşid yaradıcılığının yeni dövrü, yeni erası başlanır. Görkəmli bəstəkar Tofiq Quliyevlə Rəşid Behbudov misli görünməmiş bir tandem yaradaraq Azərbaycan musiqisinin yeni, daha parlaq səhifələrini yaradırlar. Bu dövrdə onların yaradıcılığında xalq mahnıları əsas yer tutur. Rəşid bir çox xalq mahnılarını tamamilə yeni səpgidə, o zaman dəbdə olan caz üslubunda ifa edir. Əlbəttə ki, Tofiq Quliyevin müşayiəti ilə. Rəşid Behbudovla Tofiq Quliyev Azərbaycan xalq mahnılarından ibarət bir neçə silsilə hazırlayıblar. 12 mahnı tamamilə yeni formada, yeni redaksiyada və yeni ifa tərzində dinləyicilərin ixtiyarına buraxılıb. Bu gün həmin silsilədən yalnız beş mahnı - "Qalalı", "Qalanın dibində", "Ağacda leylək", "Güloğlan" və "Yar bizə qonaq gələcək" mahnıları bizə gəlib çatmışdır.

Müasir estrada janrının inkişafı məhz bu dövrdən başlayır. Xalq mahnıları ilə yanaşı, Rəşid Behbudov Tofiq Quliyevin özünün bəstələdiyi mahnıları da gözəl, böyük məharətlə ifa edirdi. "Züleyxa", "Gözəldir Vətənim", "Bakı", "Nəsrəddin və kölgəsi" və s. mahnılar o dövrdə nəinki Azərbaycanda, keçmiş SSRİ ərazisində də çox məşhur idi.

Yüksək peşə mədəniyyətinə, böyük vokal və musiqi-səhnə ustalığına malik olan R.Behbudov Azərbaycanda opera sənətinin inkişafına da sanballı töhfələr verib. Premyerası 25 dekabr 1953-cü ildə olmuş "Sevil" operasında əsas qəhrəman - Balaş rolu Behbudova tapşırılır. F.Əmirovun bu məşhur operasında yaratdığı Balaş rolu - dərin dramatizmlə aşılanmış bu obraz sanballı opera-səhnə uğurlarından biri kimi geniş miqyasda təqdir olunmuş, respublika ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. O öz sənəti ilə işıqlı bir ümid doğurur, dünyanın sənət fəlsəfəsini açır, insanları daha xoşbəxt çağların gələcəyinə inanmağa çağırırdı. Səsindəki həzin lirizm insan ürəyinin qüdrətini və genişliyini vəsf edirdi.

DÜNYANI DOLAŞAN MÜĞƏNNİ

O, məlahətli səsi və bənzərsiz sənəti ilə təkcə Azərbaycanda deyil, bütün dünyada şöhrət qazanmışdı. Çünki o, adi ifaçı deyildi. Səsinin qüdrəti ilə doğma Azərbaycanımızı dünyada tanıdırdı, öz nəğmələri ilə məmləkətimizlə dünya ölkələri arasında bir məhəbbət körpüsü salmışdı.

1946-56-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının, 1953-60-cı illərdə fasilələrlə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, Azərbaycan Dövlət Konsert Ansamblının təşkilatçısı və rəhbəri olmuş R.Behbudov 1966-cı ildən musiqi və estrada sənətinin balet, pantomima kimi müxtəlif janrları üzvi surətdə birləşdirən Azərbaycan Dövlət Mahnı Teatrını yaratmış və onun bədii rəhbəri olmuşdur. Bu, SSRİ-də ilk belə teatr idi. Müğənni həmin ansamblla 56 ölkəni gəzmiş, Mərkəzi Amerikadan başqa dünyanın hər yerində olmuşdu. Behbudov Azərbaycan xalq mahnılarının və Azərbaycan bəstəkarlarının vokal əsərlərinin xarici ölkələrdə populyarlaşmasında böyük rol oynamışdır. Azərbaycan mahnıları ilə yanaşı o, 50-dən artıq xarici mahnını da həmin xalqın dilində ifa etmişdir. Ansambl bəzi ölkələrdə bir neçə dəfə, təkcə Hindistanda 6 dəfə qastrol səfərində olmuşdu. O, xarici ölkələrdə verdiyi konsertlərdə yerli xalqların dilində oxuyur, heyrət nidaları və alqışlarla qarşılanırdı. R.Behbudovun özünün çəkdiyi və filmə daxil edilmiş kinoxronikadan aydın olur ki, İran səfəri zamanı verdiyi konsertlərdən yığılan vəsaiti Tehranda Gənclər Evinin konsert salonunun tikintisinə hədiyyə olunub. İran gənclər naziri çıxışında bildirir ki, 1962-ci ildə Tehranda dəbdəbəli konsert kompleksi vaxtilə onun şərəfinə "Rəşidiyyə" adlandırılıb. Çilidə olarkən R.Behbudov bir çox şəhərlərdə konsertlər verir. Hətta partizanlar onu öz kollektivi ilə birgə dağlara aparırlar. Burada R.Behbudov və onun həmkarları 4200 metr hündürlükdə konsert verir, antraktlarda isə isti çay içmək əvəzinə oksigen yastığı ilə nəfəs alırdılar.

Həmin səfərdə iştirak edən Boris Brunovun dediyinə görə, üç ay ərzində kollektiv tərəfindən 85 konsert verilib və həmin konsertlərdə bir neçə yüz min tamaşaçı iştirak edib. R.Behbudov özünün parlaq yaradıcılığı və ictimai fəaliyyəti ilə xarici ölkələrlə mədəni əlaqələrini daha da möhkəmlənməsinə kömək edirdi. O, bir çox böyük ümumdünya incəsənət məclislərində, beynəlxalq gənclər festivalında, xalqlar dostluğu konsertlərində, Bolqarıstan, Macarıstan, Polşa, Finlandiya, İngiltərə, Şotlandiya, Hollandiya, İtaliya, Fransa, Avstriya, Portuqaliya, Əfqanıstan, Türkiyə, İran, İraq, Suriya, Liviya, Hindistan, Misir, Efiopiya, Sudan, Ekvador, Peru, Argentina, Boliviya və s. ölkələrdə olmuşdur. Bir çox görkəmli bəstəkarların mahnıları R.Behbudovun ifasında dünya xalqlarının 50-dən çox dilində səslənib. R.Behbudov dünyanın məşhur ölkəsinə səfəri haqqında "Uzaq Hindistanda" kitabını yazır. Azərbaycanın elə bir şəhəri və rayonu və kəndi yoxdur ki, sənətkarın ayağı oraya dəyməmiş olsun. Dünyanın hər yerində, bütün keçmiş sovet respublikalarında yüz minlərlə adam onun ecazkar səsinə valeh olmuşdur.

Görkəmli Azərbaycan müğənnisi və ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı", "Xalqlar Dostluğu" ordenləri ilə təltif olunmuşdur, bir sıra xarici ölkələrin mükafatlarına layiq görülmüşdür. O özünün bütün istedadını, tükənməz qüvvəsini, böyük təcrübəsini və biliyini Azərbaycan mədəniyyətinin inkişafına və tərəqqisinə vermiş, öz yaradıcılığı ilə vətəndaşlıq, xəlqilik ideyalarına bərqərar etmişdir. 1989-cu il iyunun 9-da xalqımızın böyük sənətkarı gözlərini həyata əbədi yummuşdur.

ZÜMRÜD BAYRAMOVA

Dövlətçilik tariximizin, adət-ənənələrimizin, elm və mədəniyyətimizin təbliği olduqca önəmlidir

Qədim dövlətçilik tarixinə mənsub olan xalqın təbii ki, zəngin dövlətçilik ənənələri olur və sözsüz ki, bu da həmin xalqın mədəniyyətinə, ədəbiyyatına, elm və təhsilinin inkişafına, eləcə də tərəqqisinə təsirsiz ötüşmür. Məhz özünü qədim dövlətçilik tarixi olduğu üçün Azərbaycan xalqının zəngin dövlətçilik ənənələri mövcuddur və bunun da xalqımızın mədəniyyətinə, ədəbiyyatına, elm və təhsilinə nə dərəcədə təsir etdiyi göz önündədir və bunu bütün dünya ictimaiyyəti çox yaxşı bilir.

Çox yaxşı bilir ki, Azərbaycan xalqı dünya mədəniyyətinə də, ədəbiyyatına da, incəsənətinə də, elm və təhsilinə də böyük töhfələr verib və özünün dövlətçilik ənənələri ilə tanınır. İndi həmin ənənələrin, məhz dövlətçilik ənənələrinin, ədəbiyyatımızın, incəsənətimizin, elm və mədəniyyətimizin, ümumiyyətlə, xalqımıza məxsus olan dəyərlərin həm qorunması, həm də təbliğ edilməsi olduqca önəmlidir.

Hər bir xalq özünün dövlətçilik ənənəsi, elm və mədəniyyəti, ədəbiyyatı, incəsənəti, ümumiyyətlə, verdiyi töhvələri ilə tanındığı üçün Azərbaycan xalqı bütün dünyada tanınan xalqlardandır. Xalqımızın min illər bundan öncəyə təsadüf edən dövlətçilik tarixinin olduğu tarixi qaynaqlarda öz əksini tapır və Azərbaycan xalqının dövlətçilik ənənələrinin zənginliyindən xəbər verir. Öz coğrafiyasında ən qədim dövlətçilik tarixinə mənsub olan Azərbaycan xalqının ən zəngin dövlətçilik ənənəsi özünü hər istiqamətdə göstərir. İstər dünya ədəbiyyatına, istər dünya mədəniyyətinə, xüsusən də dünya incəsənətinə, dünya musiqisinə, dünya elminin inkişafına xalqımızın töhfələri danılmazdı. Bizə məxsus olan çoxlu sayda mədəniyyət abidələrinin olduğu göz önündədir. Təkcə ölkə paytaxtında deyil, ayrı-ayrı bölgələrdə, rayonlarda qədim tarixə malik olan tarixi abidələrimiz var və bu abidələr bizim mədəniyyətimizin zənginliyindən xəbər verir. Tarix boyu, özünün dövlətçilik tarixi boyunca dahi yazarları, şair və yazıçıları ilə fəxr etmək haqqına sahib olan xalqımızın Nizami, Fizuli, Nəsimi və digərləri kimi dünya ədəbiyyatına bəxş etdiyi dahiləri dünya ictimaiyyəti çox yaxşı tanıyır və onların yaradıcılıqları da, verdiyi töhfələr də hamıya bəllidir. Dahi Nizaminin, Nəsiminin fəlsəfi şeirləri, əsərləri, Məhəmməd Füzulinin platonik məhəbəti tərənnüm edən əsərləri, xalqımızın bir çox ədiblərinin yaradıcılıqları və yaratdıqları dünya ədəbiyyatının incilərindən sayılır. Məhz dahi rəssam kimi tanınan Səttar Səhlülzadənin dünyanın incəsənət xəzinəsinə hansı töhfələr verdiyini də yaxşı bilirik. Eləcə də dahi Üzeyir Hacıbəyovun, Niyazinin timsalında unudulmaz əsərlərin müəllifləri də dünya musiqisinə töhfələr veriblər və Azərbaycan xalqının nümayəndələrindən olan həmin incəsənət xadimlərinin dünya incəsənətinə bəxş etdikləri də nəzərdən qaça bilməz. Bu faktları sadaladıqca bitən deyil və heç şübhəsiz ki, bütün dünya ictimaiyyəti üçün də bəllidir, amma ilk növbədə təbliğinin nə dərəcədə önəmli olduğu günümüzün reallığıdır, çünki bunun məlum səbəbləri var.

Doğrudur, xalqımızın qədim dövlətçilik tarixinin və buna görə də zəngin dövlətçilik ənənələrinin olduğu bir reallıqdır. Qeyd olunduğu kimi, bunu təsdiq edən kifayət qədər dəlillər, sübutlar var və bununla bağlı təkzibedilməz tarixi faktlar müxtəlif qaynaqlarda, salnamələrdə də öz əksini tapır. Həmin tarixi qaynaqlara istinadən deyə bilirik ki, xalqımızın düz beş min illik dövlətçilik tarixi var. Ölkəmizin ərazisində hələ min illər bundan əvvəl tayfa dövlərlərinin mövcud olduğunu təsdiq edən mixi yazılar dövrümüzə qədər qorunub saxlanılıb. Tarixi dəlillər Azərbaycan ərazisində ilk dövlət qurumlarının və ya etniksiyasi birliklərin hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq yarandığını təsdiqləyir. Hətta Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma mağaralarında, habelə başqa abidələrdə aşkar olunan arxeoloji tapıntılar, o cümlədən 300-400 min il bundan əvvəl yaşamış qədim insanın, daha dəqiq desək, Azıxantrop adlanan Azıx adamının çənə sümüyü bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edir. Ona görə də cəsarətlə deyə bilərik ki, tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir.

Eramızdan əvvəl I minilliyin və bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, Midiya, Atropatena və Albaniya kimi qüvvətli dövlətlərin mövcud olması onu deməyə əsas verir ki, xalqımızın dövlətçilik tarixi və dövlətçilik ənənələri yalnız Azərbaycanın deyil, eləcə də dünyanın dövlətçilik mədəniyyəti tarixində mühüm yer tutur. Manna dövlətinin bütün regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak etməsi, Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan qüvvətli dövlətlərin qonşularına, xüsusən də Aşşur və Urartu dövlətlərinə qarşı mübarizə aparması deyilənləri təsdiq edir. Eramızdan əvvəl VIII əsrin sonu - VII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın hərbi-siyasi tarixində kimmerlərin və iskitlərin, həmçinin iskitlərlə eyni kökdən olan sakların və massagetlərin mühüm rol oynamağa başlaması, sonrakı dövrlərdə nə Əhəməni-İran imperiyasının uzun sürən işğal rejimi, nə də Makedoniyalı İsgəndərin yürüşlərinin Azərbaycanın qədim dövlət idarəçiliyi mədəniyyətini məhv edə bilməməsi, Makedoniyalı İsgəndərin ölümündən dərhal sonra Azərbaycan dövlətçiliyinin yenidən dirçəlməsi, ölkəmizin cənub torpaqlarında Atropatena, şimalında isə Albaniya kimi qüdrətli dövlətlərin meydana gəlməsi də öz növbəsində xalqımızın qədim dövlətçilik tarixinə və ənənələrinə sahib olduğunu göstərir. Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətlərinin yaranması ilə xalqımızın siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində oyanış baş verdiyi də öz növbəsində xüsusilə vurğulanmalıdır. Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu ki, bunun da Azərbaycanın dövlətçilik mədəniyyətinin daha da zənginləşməsinə gətirib çıxardığı tarixi faktlar olaraq qəbul olunmaqdadır. Müsəlman Şərqində ilk demokratik parlament respublikasının, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də elan edilməsi Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildiyini, ilk parlament və hökumət, dövlət aparatı, idarəetmə institutlarının formalaşdırıldığı deməkdir. Doğrudur, erməni hərbi birləşmələrinin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparması, ümumiyyətlə, barəsində qeyd olunan yeni hökumətə, dövlətə qarşı imperialistlərin barışmaz mövqeyi və hücumu ilə həmin dövlət üzün müddət mövcud olmadı, amma xalqımız dövlətçilik ənənələrini qoruyub saxladı. Müstəqilliyini yenidən bərpa edərkən, məhz 1991-ci il oktyabrın 18-də Azərbaycan öz dövlət müstəqilliyinə qovuşarkən özünü Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etdi və qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi. Ümumiyyətlə, xalqımızın öz dövlətçilik tarixinə və ənənələrinə sadiqliyini təsdiq edən tarixi faktlar yetərincədir, amma həmin tarixi faktların təbliğ edilməsinə daim ehtiyac duyulur və dövlətçilik tariximizin, adət-ənənələrimizin təbliği olduqca önəmlidir. Sözsüz ki, məlum səbəblər var və bunu da hər birimiz bilməli və nəzərə almalıyıq.

Nəzərə almaq lazımdır ki, qonşu dövlət olan Ermənistan, ümumiyyətlə, bizim coğrafiyaya, Cənubi Qafqaza məskunlaşdırılan haylar daim bizə məxsus olan hər nə varsa, hamısı mənimsəməyə, özününküləşdirməyə çalışıblar və onlara məxsus olan da məhz bu "ənənə"dir. Daha dəqiq desək, hayların öz dövlətçilik ənənələri olmasa da başqalarına məxsus olanı "özününküləşdirmək" istəyi bir ənənə kimi qəbul edilib və hələ də qəbul edilməkdədir. Cənubi Qafqaza köçürülən köçəri hay tayfaları məskunlaşdıqları dövrdən başlayaraq qonşu dövlətlərə, xüsusən də Azərbaycan dövlətinə, xalqımıza qarşı ərazi iddiası ilə çıxış etməkdə idilər və buna görə də tarixi saxtalaşdırmaqla məşğul olmağı hər zaman "ümdə vəzifə" hesab etməkdə olublar. İlk növbədə xalqımıza məxsus olan dövlətçilik tarixini öz saxtakarlıqları ilə silməyə çalışan ermənilərin tarixi abidələrimizi məhv etmək üçün bütün əməllərə əl atıqlarının təkcə biz yox, elə bütün dünya şahididir. Xalqımıza məxsus olan ənənələri, hətta mədəniyyətimizi belə "özününküləşdirmək" niyyəti ilə etdikləri saxtakarlıqlar da ,oxdan bəllidir. Tarixi abidələrimiz, mədəniyyət abidələrimiz, sərdabələr, hətta qəbir daşları üzərində olan yazıları belə məhv edərək, öz istədikləri şəkildə müdaxilə etməklə bizə, xalqımıza məxsus olanı öz adlarına çıxmağa da, bizim musiqilərimizi öz dillərində ifa edərək, özlərininki kimi təqdim etməyə də, milli mətbəximizə aid olanların belə özlərinə mənsub olduğunu iddia etməyə çalışmaları da saxtakarlıq nümunəsidir. Belə bir saxtakarlıqda məqsəd əlbəttə ki, guya ərazilərin sahibi kimi özlərini göstərməyə çalışmaq və yenə də ərazi iddiası ilə çıxış etməkdir. Bir sözlə, biz bu saxtakarlıqları görməkdəyik və təbii ki, bunun qarşısının alınması da ən vacib hesab olunmalıdır, olunur da.

Biz öz xalqımıza məxsus olan hər nə varsa, ona qarşı hansısa "mənimsəmə" cəhdinə belə imkan verməməliyik. Xalqımıza məxsus olan dəyərlərə sahib çıxmalıyıq. Təkcə sahib çıxmalı yox, həm də təbliğinə xüsusi diqqət yetirməliyik ki, kimlərinsə hansısa cəhdləri mənasız olsun. Buna görə də ilk növbədə dövlətçilik tariximizin, adət-ənənələrimizin, elm və mədəniyyətimizin təbliğinə xüsusi diqqət yetirməliyik. Bilməliyik ki, dövlətçilik tariximizin, adət-ənənələrimizin, elm və mədəniyyətimizin təbliği olduqca önəmlidir.

İnam Hacıyev

TƏBLİĞ

Gürcüstan yeni prezidentinin seçilməsi və bundan dərhal sonra baş verəcək siyasi böhranın növbəti mərhələsi ərəfəsində çıxılmaz duruma düşüb. Məsələ ondadır ki, hazırkı dövlət başçısı Salome Zurabişvili istefa verməkdən imtina edir və prezident iqamətgahında özünü müdafiə etməyə hazırlaşır. Fransa hakimiyyəti də vəziyyətə müdaxilə etsə də hələlik Salomeni kürsüsündən dinc üsulla qopqrmaq mümkün görünmür.

Makronun Gürcüstan fiaskosu

Seçkilərin vaxtı isə artıq təyin edilib.Gürcüstanda prezident seçkiləri dekabrın 14-də keçiriləcək, lakin növbəti dövlət başçısının adı artıq bəllidir - o, keçmiş futbolçu Mixail Kavelaşvili olacaq. Onun andiçmə mərasimi dekabrın 29-da baş tutacaq. Ən azından hakim "Gürcü arzusu"nda belə düşünürlər. Müxalifət qeyri-legitim hakimiyyətin prezidenti seçə bilməyəcəyinə inandığı üçün öz namizədini irəli sürməyib. Xatırladırıq ki, respublika tarixində ilk dəfə olaraq dövlət başçısını Gürcüstan parlamentində seçəcəklər. Hazırkı prezident Salome Zurabişviliyə gəlincə, onun səlahiyyətləri dekabrın 16-da başa çatacaq. Amma o, artıq iqamətgahı tərk etməyəcəyini bildirib. Zurabişvilinin sözlərinə görə, o, ölkədə hakimiyyətin yeganə qanuni nümayəndəsidir.Bu arada Fransa prezidenti Emmanuel Makron "Gürcü Arzusu"nun yaradıcısı və onun həmyerlisi, Fəxri Legion Cəngavəri Bidzina İvanişviliyə zəng edib. Danışıqlar təxminən bir saat davam edib. Yelisey Sarayı Makronun "hüquq-mühafizə orqanlarının vətəndaş cəmiyyəti nümayəndələrinə qarşı təhdidləri, habelə dinc nümayişçilərə və jurnalistlərə qarşı zorakılığı pislədiyini" bildirib. Bundan əlavə, o, saxlanılanların azadlığa buraxılmasını, ifadə və sərbəst toplaşma azadlığına hörmət edilməsini tələb edib.Ümumiyyətlə, Makronun fikrincə, Tbilisi Avropanın inkişaf yolundan çıxıb. Dövlət başçısı hesab edir ki, vəziyyəti düzəltmək üçün "Gürcü arzusu" gürcü xalqının demokratik ruhuna hörmət edərək, bütün siyasi qruplar və vətəndaş cəmiyyətinin nümayəndələri ilə inklüziv dialoqa başlamalıdır. "Gürcü arzusu"nun təfsirində hər şey fərqli idi. Makron Qafqaz respublikasının hakim elitasını danlamadı, əksinə kütləvi etirazlarla bağlı ona rəğbət bəslədi və bu vəziyyətin tam yumşaldılmasına "töhvə verməyə hazır olduğunu" bildirdi. İvanişvili də öz növbəsində Fransa prezidentinə təşəbbüsə görə təşəkkür edib və siyasi böhranın həlli üçün birgə səylər ideyasını alqışlayıb. Tərəflər əldə olunan irəliləyişi qiymətləndirmək üçün yaxın günlərdə yenidən zəng etmək barədə razılığa gəliblər.Xatırladaq ki, telefon danışığından əvvəl Zurabişvilinin doğulub boyabaşa çatdığı Fransaya səfəri olub. Bərpa edilmiş Notr-Dam kilsəsinin açılış mərasimindən istifadə edən Zurabişvili təkcə Makronla deyil, ABŞ-ın seçilmiş rəhbəri Donald Trampla da danışıqlar aparıb. Onun sözlərinə görə, söhbətlər zamanı o, "oğurlanmış parlament seçkilərini və gürcü xalqına qarşı son dərəcə qorxulu repressiyaları ifşa edib". Müxalifət Makronun çağırışını "Gürcü arzusu"na son xəbərdarlıq kimi qiymətləndirib. "Mənim qiymətləndirməmdə Makron İvanişviliyə son xəbərdarlığını verdi. Güman edə bilərəm ki, ölkədə baş verənlər Fransa üçün qəbuledilməzdir və belə davam edərsə, Paris müəyyən tədbirlər görəcək və hətta Avropa Birliyinin "Gürcü arzusu"na təzyiqində aparıcı rol oynaya bilər", - deyə "Dəyişiklik Koalisiyası" təşkilatı liderlərindən biri Zurab Caparidze deyib.Bundan əlavə, "Güclü Gürcüstan" partiyasının üzvü Tamaz Datunaşvili müxalifətin "Gürcü arzusu" ilə danışıqlarda qaldırmağa razı olduğu məsələlərdən danışıb. Onun sözlərinə görə, bu fürsət Makronun İvanişvili ilə söhbətindən sonra yaranıb. İlk növbədə, Datunaşvili təklif edir ki, hakimiyyət bütün həbs olunan etirazçıların azad edilməsi və yeni parlament seçkilərinin keçirilməsi formatını müzakirə etsin, çünki "Gürcü arzusu"nun keçmiş əleyhdarları onları saxtakar hesab edirlər.Düzdür, "Gürcü arzusu" hesab edir ki, Makronun İvanişviliyə çağırışı müxalifətin məğlubiyyəti qəbul etməsi üçün siqnaldır. Belə ki, hakim partiyanın üzvü Levan Maxaşvili hesab edir ki, Paris Tbilisi ilə qarşılıqlı hörmət əsasında münasibətləri davam etdirməyə hazırdır. "Hər iki tərəf bu gün bütün vacib məsələləri, o cümlədən Gürcüstanda gedən prosesləri ətraflı nəzərdən keçirdi. Biz gözləyirik ki, atdığımız addımlar mütləq nəticə verəcək. Ən əsası odur ki, parlament dinc fəaliyyətini davam etdirsin. Bu çağırış münasibətlərin qarşılıqlı hörmət əsasında davam etməsinə kömək edəcək və bizdə olan bütün dağıntılar, bu proseslər dayanacaq", - deyə Mahaşvili bildirib.Parlamentin prosessual məsələlər və reqlament komitəsinin sədri David Matikaşvili hökumətin əleyhdarlarına destruktiv hərəkətlərdən əl çəkməyi tövsiyə edib. "Radikal müxalifət bu kommunikasiyaların davam edəcəyi ilə barışmalıdır. Bu baxımdan, təbii ki, dağıdıcı rejimdən konstruktiv rejimə keçməsələr, onların siyasi gündəliyi daha da mürəkkəbləşəcək. Elə şərtlər var ki, onları dəyişdirmək mümkün deyil... Gürcüstanda artıq legitim hökumət var", - Matikaşvili vurğulayıb.Amma politoloqlar hesab edir ki, prezident seçkiləri vəziyyəti kökündən dəyişməyəcək və münaqişənin kəskinləşməsi olmayacaq. Makronun zəngi isə "Gürcü arzusu" ilə dil tapmaq cəhdidir. Fransa prezidenti gürcülərin yox, öz ölkəsinin nə qazanacağı barədə düşünür.

Fransa prezidenti özünü xilas edə biləcəkmi?

Fransa prezidenti Emmanuel Makron siyasi böhranı həll etməyə çalışır. İfrat solçu və ifrat sağçı qüvvələrin onun namizədlərinə etimadsızlıq səsi bildirmək niyyətində olduğu bir şəraitdə onun stabil hökumət yaratmaq çətinliyi var. Çox güman ki, tərəflər gələn ilin yeni büdcəsi ilə bağlı razılığa gələ bilməyəcəklər. Lakin bu halda fransızların rifahı naminə siyasətçilər kompromis texniki büdcəyə, bəlkə də mərkəzçi baş nazirə - texnokrata razılaşmalı olacaqlar.Parlament partiyalarının liderləri baş nazir postuna potensial namizədləri müzakirə etmək üçün Makronla görüşüb. İstefa verən Mişel Barnierin yerinə kimin keçəcəyinə qərar verə bilər. Müxtəlif siyasi spektrlərin nümayəndələri ilə görüş Beşinci Respublika Prezidentinə çətin seçimdə kömək etməli idi. Bununla belə, namizədin təsdiqlənəcəyi fakt deyil, nəinki onun vəzifədə uzun müddət qalması. Məsələ burasındadır ki, nə Milli Cəbhənin faktiki lideri Marin Le Pen, nə də ifrat solçu "Fəth olunmamış Fransa"nın nümayəndələri Makronla əlaqə saxlamayıblar.Lakin Barnierin istefasını mahiyyətcə Milli Assambleyada ən çox yerə sahib olan bu iki siyasi qüvvə təşkil etdi. Bəlkə də Makronun planı solçu koalisiyanı parçalamaq və Fəth olunmamış Fransanın müttəfiqlərini əməkdaşlığa inandırmaq idi. Lakin siyasi rəqiblərlə müttəfiqlik strategiyası yayda keçirilən parlament seçkilərinin ikinci turunda olduğu kimi, artıq prezidentə uğur gətirmir.Siyasi qüvvələr artıq partiyaların fikirlərinə məhəl qoymayaraq dözmək istəmirlər və bu, Makronu demək olar ki, çıxılmaz vəziyyətə salır. O, 48 saat ərzində namizəd seçəcəyini vəd edib. Lakin o, hələ ki, qərarını açıqlamayıb. Makronun Fəth edilməmiş Fransanın bir hissəsi olmayan solçulara olan ümidi çox güman ki, özünü doğrultmayacaq. Baş nazirliyə namizəd yəqin ki, vəzifəyə keçəcək, çünki bunun əleyhinə səs vermək Milli Mitinqin planlarına daxil deyil. Lakin sonra Barnierlə baş verən hekayənin təkrarlanması tamamilə mümkündür. Vəziyyəti həll etmək cəhdində prezident ifrat tədbirlərə gedərək Konstitusiyanın 16-cı maddəsindən istifadə edə bilər. Ancaq belə bir addım yenə də həddindən artıq olardı. Fakt budur ki, siyasi böhrana baxmayaraq, ən azı texniki büdcə qəbul ediləcək. Əks halda vəziyyət tamamilə fəlakətli olacaq. Axı maaşlar verilməli, sosial sahə fəaliyyət göstərməlidir. Başqa bir şey odur ki, populist qüvvələr böyük büdcə kəsiri ilə belə bütün bunların eyni səviyyədə işləməsini istəyirdilər. Amma bu, maliyyə baxımından mümkün deyil.Siyasi döyüşlərə çox da qarışmayan və ya mötədil mərkəzçi bir baş nazir təyin etmək olar. Potensial namizədlər arasında 73 yaşlı Fransua Bayru da var. O, təcrübəli mərkəzçi funksionerdir, lakin onun qocalması çətin ki, böyük siyasi perspektivlərə malik olsun. Nazirlər Kabineti onun kimi radikal baxışları ilə seçilməyən şəxslərdən yaradıla bilərdi. Ümumilikdə siyasi sabitliyə nail olmaq ən azı gələn yaya qədər çətin olacaq, Makron yeni parlament seçkiləri təyin edə bilər.

V.VƏLİYEV

KRAKTUS

Oxumuruq, yoxsa oxumağa kitab tapmırıq?

Hər bir dövrün özünəməxsus xüsusiyyətləri, qanunauyğunluqları olur. Yaşadığımız dövr informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin həyatına təsiri, insan biliyinin dərinləşdirilməsi üçün mənbə müxtəlifliyi və genişliyi baxımından diqqəti cəlb edir. Bəs görəsən bu qədər alternativ vasitələr varkən kitab oxumaq nə qədər aktualdır?



QURUM RƏSMİLƏRİ NƏLƏRİ ETİRAF ETDİ?

Mövzu ilə bağlı Elmi işlər və kitabxana informasiya xidməti üzrə direktor müavini Ədibə İsmayılova SİA-ya açıqlamasında bildirib ki, bütün respublika Milli kitabxanaya müraciət edir: ”Düşünürəm ki, bunun da səbəbi ondan ibarətdir ki, Azərbaycan dövrü mətbuatının arxivi bizdə mühafizə olunur. Ona görə də bu kitabxanaya müraciət daha çoxdur. Hal-hazırda kitabxananın oxucu zalına baxsanız oturmağa yer yoxdu. Bizə tələbələr müraciət edir. Eyni zamanda elmi işçilərimiz də müraciət edir. Onlar daha çox vertual rejimdə müraciət edirlər və biz onlara elektron xidmət göstəririk. Azərbaycan Milli Kitabxanasına bu gün şəxsi marağı üçün gələn gənclərimiz də çoxdur. İmtahanlara hazırlaşanlar da var, bədii kitab oxuyanlar da var, hansısa bir elm sahəsi ilə maraqlananlar da var. Etiraf edək ki gənclər daha çox tərcümə olunmuş və türk dilində yazılmış kitablara üstünlük verirlər. Çox sevindirici haldır ki, texnikanın bu qədər inkişaf etməsinə baxmayaraq Milli Kitabxanaya oxucu gəlişi azalmayıb, tam əksinə günü gündən artır”.

Naşir, tərcüməçi-yazar, ”Qanun” nəşriyyatının direktoru Şahbaz Xuduoğlu da bizimlə öz fikirlərini bölüşüb: “Son dönəmlərdə kitablara maraq stabil şəkildə artır. Lakin, insanlar arasında fərqli davranışlar müşahidə olunur. Bir çoxları həqiqətən kitab almaq və oxumaq üçün ”Book centr”lərə (kitab mərkəzlərinə) gedir. Eyni zamanda, bu məkanlar sosiallaşma yerləri kimi də istifadə olunur, bəzi gənclər isə daha çox kofe içib şəkil çəkdirməyə üstünlük verir. Bu, bir növ trend olsa da, müsbət tərəfi odur ki, bu mühit kitabsevərlik mədəniyyətinin genişlənməsinə dəstək olur. Günün tələbatı oxucuların marağının fərqli mövzularda dəyişməsinə də səbəb olur. Xüsusilə ”Psixologiya və şəxsi inkişaf” (özünüdərk, liderlik, motivasiya), ”Tarixi romanlar və bioqrafiyalar”, ”Sosial problemləri işıqlandıran əsərlər”, ”Elmi-fantastika və distopiya janrı”. Bu mövzular müasir problemləri əks etdirdiyindən daha çox diqqət cəlb edir. Təbi ki, kitab seçimləri yaş aralığına görə də dəyişir. 15-25 yaş arası gənclər, daha çox təhsil və şəxsi inkişaf üçün oxuyurlar. 30-45 yaş arası yaş qrupunda olanlar həm peşəkar, həm də fərdi inkişaf kitablarına maraq göstərirlər. Uşaqlar arasında isə valideynlərin dəstəyi ilə maraq artır. Uşaq ədəbiyyatına diqqət son illərdə artmaqdadır. Valideynlər uşaqları üçün təhsilə dəstək olan kitablar və əyləncəli nağıllar almağa üstünlük verir. Azərbaycan dilində uşaq ədəbiyyatı da inkişaf edir, lakin hələ də rus və ingilis dillərindəki tərcümə əsərlərinə üstünlük verənlər çoxdur. Bu isə yerli müəlliflərə daha çox dəstək lazım olduğunu göstərir. Sevindirici hal odur ki, mənim müşahidəmə görə, oxucu marağı son 5 ildə 20-30% artmışdır. Amma gənclər arasında bu rəqəm daha yüksəkdir”.

Ülkər Rəhmanqızı

Dəm qazından necə qorunaq?

Son zamanlar dəm qazından ölüm halları artıb. Bəs, buna səbəb nədir? Özümüzü necə qoruyaq? SİA mövzu ilə bağlı “Azəriqaz” İstehsalat Birliyi və Fövqəladə Hallar Nazirliyinə sorğu ünvanlayıb. “Azəriqaz” İstehsalat Birliyinin Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühitin Mühafizəsi və Keyfiyyətə Nəzarət Şöbəsinin rəisi İlkin Behbudov: "Dəm qazı natamam yanma məhsuludur. Dəm qazının yaranmaması üçün qaz borusunda tam yanma prosesi getməlidir. Əgər tam yanma prosesi getməsə, yəni natamam yanma prosesi getsə dəm qazı əmələ gələcək.

Bir kubmetr metan qazının tam yanması üçün 10 kubmetrə qədər hava lazımdır və həmin qaz qurğusu işləyən məkanda hava axını təmin olunmalıdır, ventilyasiya kanalı olmalıdır, nəfəsliklər açıq olmalıdır və otaq daimi olaraq oksigenlə təmin olunmalıdır. Həmçinin, həmin qaz qurğusu yerləşən otaqda dəm qazını aşkar edən və vaxtında siqnal verən qaz dedektoru və dəm qazına həssas dedektor quraşdırılmalıdır. Dəm qazının əmələ gəlməsinin qarşısını almaq üçün həmçinin yanma məhsulları olan otaqlarda tez-tez hava dəyişdirilməlidir, qızdırıcıların hava sorucu borularının yaxşı işləməsinə nəzarət edilməlidir, qapalı mühitdə qaz yandırılarkən mütləq nəfəsliklər açıq olmalıdır.

Dəm qazı ilə yüngül zəhərlənmə zamanı insanda başgicəllənmə, baş ağrısı, quru öskürək, ürəkbulanma, qusma kimi əlamətlər meydana çıxır. Daha ağır zəhərlənmə isə qıcolmalar, huşun itirilməsi və insanın anlaqsız vəziyyətə düşməsinə gətirib çıxardır. Dəm qazını yaradan digər amillərdən də biri tüstü bacalarının işlək vəziyyətdə olmaması, və yaxud da tüstü bacalarının düzgün quraşdırılmamasıdır. Tüstü bacaları binalarda olan yerlərdə mütləq ildə bir dəfə təmizlənməlidir və bunun təmizlənməsi haqqında qaz paylayıcısına arayış verilməlidir. Tüstü bacaları standarta uyğun quraşdırılmalıdır. Hər hansısa divardan və yaxud da pəncərədən nazik bir təbəqəli borunu bayıra çıxartmaqla tüstü bacası var deyə həmin qurğunu işlətmək qəti qadağandır. Dəm qazı sırf məsuliyyətsizlik və qazdan istifadə qaydalarına əməl etməməkdən yaranmış bir məhsuldur və biz əgər qazdan istifadə qaydalarına və təbii qazla düzgün davranma, qurğulardan düzgün istifadə edəriksə dəm qazının əmələ gəlməsi mümkün deyildir”.

Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən də SİA-nın sorğusuna cavab verilib: ”Dəm qazı ölüm təhlükəsi yaradır.

Bu təhlükədən qorumaq üçün:

- qaz cihazı saz və standartlara uyğun olmalı;
- cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı;
- havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı;
-hamam otağında ventilyasiya borusu, qapının aşağısında dəliklər olmalı;
-tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

Yadda saxlayın! Dəm qazı iysizdir, hiss edilmir!

Ondan zəhərlənmənin əlamətləri: baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, halsızlıq.

Dəm qazından zəhərlənmiş insanı təmiz havaya çıxarıb, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad etmək, təcili tibbi yardım çağırmaq lazımdır!”.

Ayşən Vəli

RƏSMİ AÇIQLAMA

Elə baxma, göz dəyər: nəzər var?

Əksəriyyətimizin içində nəzərə, pis gözə tuş gəlmək kimi bir qorxu olur. Kimisi bunu adi hal hesab edir, kimisində isə bu bir növ fobiya olur. Nəzərə inanan da var, inanmayan da. Elm və din bu barədə ortaq məxrəcə gələ biliblər, dinlərdə haqqında söz açılan nəzər anlayışı elmə görə də öz təsdiqini tapıb, indi insanın mənfi və ya müsbət enerjilər yayması ilə bağlı maraqlı tədqiqatlar da var.

Gözdəymə nədir?

Bu gün texnoloji inkişaf bizə olduqca çox şey verir. Əsrin möcüzəsi olaraq qəbul edilən bioenergetika elmi sayəsində nəzər-gözdəymə də sübut edildi. İndi bilirik ki, insanların gözləri çox şeyə qadirdir, onlar çox təsirli şüalar- həm müsbət, həm də mənfi şüalar yaya bilir. Gözdəymə də bədənə yönlənən mənfi enerjidir. Bu enerji insan orqanizminin nizamı olaraq qəbul edilən bioritmi, yəni insanın təbii tarazlığını pozur. Nəticədə insanlarda əldən düşmək, halsızlıq, xəstəlik müşahidə edilir. Hətta, orqanizmi zəif olan insanlarda ölüm belə qaçılmazdır.

Çox maraqlıdır ki, Rusiyada aparılan bir araşdırmada bununla bağlı maraqlı nəticələr əldə edilib. Sübut edildi ki, bu şüaların doza və nisbəti insanların acıqlı, əsəbi, həyəcanlı və qısqanc anlarında daha da artır. Bu güc, rəngli gözlü insanlarda digər göz rənglərinə sahib insanlara nisbətən daha artmaqda və təhlükəli olmaqdadır.

Yəqin ki, oxucularımız öz gündəlik həyatlarında müşahidə ediblər, birisi hansısa bir əşyamıza həsədlə, qısqanclıqla baxanda o əşyamızın başına bir iş gəlir. Bu insanlar üzərində də olur. Xüsusilə uşaqlara nəzərin tez dəyməsi ilə bğlı iancımız da var. Uşaqlarımızın üzərində adətən dağdağan ağaçı, göz muncuğu, qaraçörək otunun toxumunu gəzdiririk ki, bəd nəzərdən, pis gözdən uzaq olsun.

Bəzi insanların çox bəyəndikləri insanlara, yaxud əşyaya, baxışları və ya sözləri ilə zərər verdikləri də rastlanan vəziyyətdir. Bəzən də olur ki, özünüzü çox sağlam və gümrah hiss etdiyiniz bir zamanda birdənbirə halsızlaşıb, səbəbsiz bir yerə xəstələnirik. Həkim gəlsə də, dərdimizə çarə edə bilmir, çünki problem müasir tibbin gücü çatan bir şey deyil, ortada bədənin nədən xəstələndiyini göstərəcək bir sübut da yoxdur, çünki bu enerji məsələsidir.

El arasında nəzərə bir çox ad verilir: "göz dəymə", "göz yandırma", "göz çəkmə", "göz istəyi" və "göz işıldaması" kimi də deyilir. Müasir lobaratoriyalarda mənfi enerjini Alfa (sarsıdıcı nəzər), Betta (incidici, dağdıcı nəzər), Qamma (yandırıcı) olaraq üç kateqoriyaya ayırırlar. İnsanlar arasında daha çox Alfa gözdəyməsinə rastlanır, əksəriyyət də buna inanır. "Alfa" nəzəri dəyən insanda elmi olaraq beynin orta qisimində sinirlər hərəkətə gələrək göz kürəsini böyüdür və əsnəmə başlayır. Bu, birinci əlamət hesab edilir. Çünki, insana mənfi enerji yükləndiyini elmi olaraq fizioloji baxımdan əsnəmə və göz kürəsinin böyüməsindən anlaşılır.

Nəzəri olan adamın nəzərə gələcək adama neqativ enerji göndərməsi şüursuz olaraq reallaşır. Nəzər şüurlu olaraq da gerçəkləşdirilə bilər, amma bu olduqca az rastlanan vəziyyətdir. Nəzəri şüurlu olaraq reallaşdıran insanlar çox azdır. Bu artıq parapsixologiya mövzusuna daxildir. Nəzəri şüurlu olaraq vuran insanların gözlərindən "Qamma", yəni yandırıcı şüalar axır. Bu cür şüalar rentgen çəkilişi zamanı baş verən şüalanma səviyyəsində dəyərləndirilir. Bu növ insanların sayı az olmaqla yanaşı həm də çox təhlükəlidirlər.



Rusiyada illər əvvəl 1000 nəfər üzərində labaratoriyada aparılmış analizlərdən sonra məlum oldu ki, ən çox nəzərə gələnlər qəhvəyi və yaşıl rəngli gözlərin sahibləridir. Bu insanlar digər rəngli gözlərə nisbətən daha çox nəzərə və ya mənfi enerjiyə məruz qalırlar. Bu elmi araşdırmaya görə, ən təsirli nəzər şüalarını meydana gətirən göz rəngləri isə mavi və ala göz rənglərinə sahib olan insanlardır.

8 növ- ala, mavi, qara, yaşıl, bənövşəyi (dünyada bu rəngli gözü olanlar çox azdır), boz, bulanıq və qəhvəyi göz rənglərinə sahib insanların bir-birinə enerji ötürməsi məsələsi də maraqlıdır.

Məsələn, mavi gözlülərin ən çox qəhvəyi, ala, boz, bənövşəyi, yaşıl, bulanıq və qara gözlülərə nəzəri dəyə bilir. Bulanıq gözlü insanların daha çox mavi, qara, yaşıl, qəhvəyi, bənövşəyi, tünd və ala gözlülərə, yaşıl gözlülərin boz, ala, qara, qəhvəyi, bənövşəyi, bulanıq və mavi gözlülərə mənfi enerji ötürməsi mümkündür. Qara gözlülərin ən çox mavi, ala, yaşıl, qəhvəyi, tünd, bənövşəyi və bulanıq göz rəngi olanlara gözü dəyir, ala gözlülərin ən çox yaşıl, bulanıq, mavi, qara, qəhvəyi, bənövşəyi və boz gözlülərə nəzəri keçə bilir. Boz gözlülərin qara, bənövşəyi, bulanıq, mavi, yaşıl, ala və qəhvəyi gözlülərə, bənövşə rəngli gözlülərin boz, bulanıq, yaşıl, ala, qəhvəyi, qara və mavi gözlülərə, qəhvəyi gözlülərin ən çox mavi, yaşıl, bulanıq, ala, bənövşəyi, boz və qara gözlülərə nəzəri dəyir.

El arasında deyirlər ki, nəzər daha çox gözəl insanlara, malmülk sahiblərinə, xalq arasında şöhrəti olanlara, işində uğur qazananlara, qiymətli əşyalara, yeniliklərə, yeni evlənən gənclərə, yeni doğulan uşaqlara, yeni alınan avtomobillərə, yeni alınan evə, səliqəli və göz oxşayan bağ-bağçaya dəyir. Ümumiləşdirsək, insanı özünə çəkən bütün gözəl şeylərə nəzər dəyir. Körpələrə mənfi enerjinin yüklənməsinin qarşısını almaq üçün əvvəllər yaşlı nəslin nümayəndələri "nə çirkindir", "meymuna bənzəyir" deyib nəzər qaytarırdılar.

İddialara görə qadın nəzəri kişi nəzərindən daha itidir. Bu hadisə qadınların hər mühitdə gözəl görünmək hissindən meydana gəlir. Çünki qadın başqa bir gözəl qadın görəndə ona həsəd və qibtə ilə baxır və bu səbəbdən qadınlar bir-birlərinə daha çox nəzər vurur. Kişi nəzəri qadınlar üzərində çox təsirli deyil. Kişilərin də nəzəri öz həmcinslərinə daha çox dəyir, işində daha uğurlu olan, yaxşı karyerası olan və daim uğur qazanan kişilər öz həmcinsləri tərəfindən gözdəyməyə - mənfi enerjiyə tez məruz qalırlar. Eyni zamanda nəzər qızıl, almaz, brilyant və gümüş kimi qiymətli əşyalara da dəyir. Ona görə vacib olmadıqca bu kimi əşyaları üzərinizdə gəzdirməyin.

Fizioloji, psoxoloji və parapsixoloji təsirləri

Gözdəymənin fizioloji təsirləri baş gicəllənməsi, mədə bulanması, ayaq sürüşməsi, bulanıq görmə, refleks pozulmaları, gözlərin qızarması, göz almasının böyüməsi, səbəbsiz əsnəmələr, tez-tez baş verən kiçik qəzalar, müxtəlif xəstəliklər, yıxılma, gözdə qansızma, sızanaqlar, çibanlar, əsasən də göz çibanları (el arasında buna itdirsəyi də deyirlər), əldə və ya başqa bir yerdə ziyillər çıxması, qaş və saç tökülməsi, mədə ağrısı, dodaq quruması, ayaq-əl ağrıması, bel ağrısı, qulaqda küy, göz bulanıqlığı kimi qəbul edilir.

Nəzərin psixoloji təsirləri yuxudan sıçramalar, yuxuda qışqırmalar, əl titrəməsi, gözlərin bir nöqtəyə zillənməsi, yorğunluq hissi, yuxu pozğunluğu, bəzən də həddindən artıq yatmaq istəyi, gülmə krizi, stress, adaptasiya problemi, səbəbsiz əzəbilik, dilin topuq vurması, düşüncədə pozğunluq, qarabasma, səbəbsiz göz yaşı, səbəbsiz narahatlıq hissi, ağırlıq hissidir.

Gözdəymənin parapsixoloji təsirləri: - işinizin uğursuz olması, evinizdə narahatlıq, şans və qismətinizin bağlanması, yaşadığınız mühiti sevməmək, sevdiyinizə nifrət etmək, evliliklərdə səbəbsiz davalar, boşanmalar, xəyanət, qısqanclıqlaranın başlaması, dostluqlarınızın pozulması, evlənə bilməmək, yuxularınızda davamlı mavi rəng və ya nəzər muncuğu görmək, ovsunlanma hissi kimi parapsixoloji təsirlər meydana gəlir.

Böyüklər nəzərdən qorunmağın ən yaxşı yolu kimi hər gün evdə üzərlik yandırmağı məsləhət görür. Üzərliyin spesifik qoxusu ilə bəd nəzərləri, şər qüvvələri evdən qovmasına ianınb yaşlı nəslin nümayəndələri. Yeni doğulan körpənin beşiyinə, ərə gecən qızın cehizinə mütləq qaydada üzərlik qoyulur.

Bizim elimizin bir adəti vardı, yeni doğulan körpə 40 gün heç kimə göstərilmirdi, yanına sadəcə ata-anası, nənə-babası girə bilirdi. Bu adət boşuna deyil, yeni doğulan körpə 40 gün nəzərə davamsız olur, əgər ona kimsə pis gözlə baxsa, mənfi enerji ötürsə o bunu qəbul edəcək. Lakin bu adət indi unudulub, gənc nəsil bunun gərəksiz olduğunu hesab edir.

Lalə Mehralı

"Azərbaycan Milli Ensiklopediyasının yeni cildlərində mühüm məqamlar yer alacaq"

Görkəmli alim, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli, AMEA-nın vitse-prezidenti, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktoru, akademik Tofiq Nağıyev Azərbaycanda kimya elminin inkişafında, bu sahədə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında böyük rolu olan alimlərimizdəndir. Onun Azərbaycan elminin inkişafı yolundakı xidmətləri, əldə etdiyi nailiyyətlər dövlət tərəfindən hər zaman yüksək qiymətləndirilib.

MÜSAHİBƏ

Alim "Rəşadətli əməyə görə" medalı, "Şöhrət" ordeni ilə təltif olunub, həmçinin Azərbaycan Respublikasının "Dövlət mükafatı"na layiq görülüb. SİA xəbər verir ki, akademik Tofiq Nağıyev Azərbaycan Milli Ensiklopediyası, növbəti cildlərə hazırlıq, AMEA-nın 80 illik yubileyi, eləcə də ölkəmizdə kimya elminin mövcud vəziyyəti və inkişaf perspektivlərinə dair suallarımızı cavablandırıb.

– Tofiq müəllim, cari ilin oktyabr ayında dövlət başçısı tərəfindən Azərbaycan Milli Ensiklopediyasının Redaksiya heyətinin yeni tərkibi təsdiqlənib. Milli Ensiklopediyanın növbəti cildinin çapı ilə bağlı hazırlıqlar nə yerdədir? Yeni cilddə Azərbaycanla bağlı hansı yeniliklər gözlənilir?

Əvvəla onu bildirim ki, Azərbaycan Milli EnsiklopediyasınınRedaksiya Heyətinin tərkibinə yenidən baxılması ilə əlaqədar uzun müddət idi ki, müzakirələr aparılırdı. Biz əvvəlki tərkibin yenilənməsi üçün Redaksiya Heyətinin üzvləri tərəfindən müəyyən edilmiş kriteriyalar əsasında yeni təkliflər hazırladıq və dövlət başçısına təqdim etdik. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Redaksiya Heyətinin yeni tərkibi təsdiq edildi. Bu qərar ensiklopediyanın növbəti nəşrlərinin daha peşəkar və zəngin məlumatlar əsasında hazırlanacağına zəmin yaradır.

Növbəti cildlərin nəşrinə gəlincə, Azərbaycan Milli Ensiklopediyasının XI və XII cildləri hazırlansa da, 2020-ci ildəbaş vermiş pandemiya səbəbindən fəaliyyətimizdə müəyyən fasilələr yarandı. Lakin o çətin günlərdə belə, biz X cildin vaxtında çapdan çıxmasını təmin etdik, eyni zamanda, növbəti cildlərin hazırlanmasını davam etdirdik.

Elə həmin il sentyabrın 27-də Azərbaycan xalqının tarixində iz qoyan mühüm bir hadisə baş verdi – İkinci Qarabağ Müharibəsi başladı. Cəmi 44 gün davam edən bu savaş Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında keçirilən genişmiqyaslı hərbi əməliyyatlar, ordumuzun peşəkar hərbçilərinin bacarığı, qəhrəman oğullarımızın qanı və canı bahasına böyük tarixi qələbə ilə başa çatdı. Nəhayət, 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız azad edildi. Milli qürurumuzun təntənəsinə çevrilən bu möhtəşəm Zəfər,torpaqlarımızın azad olunması uğrunda canından keçmiş qəhrəman oğullarımızın parlaq döyüş yolu bizim qarşımızdayeni məsuliyyət, müqəddəs vəzifələr qoydu.

Birmənalı olaraq, nəşrə hazır cildlərə yenidən baxılmalı, bu tarixi hadisə ilə bağlı baş verən bütün dəyişikliklər kitablarda əksini tapmalı idi. Təbii ki, bu da bir sıra çətinliklərlə müşayiət olunan və xeyli vaxt tələb edən bir proses idi. Vaxt itirmədən növbəti nəşrlərin üzərində yenidən işləməyə başladıq və bu istiqamətdə işlər indi də davam edir.

Onu da qeyd edim ki, milli ensiklopediyanın nəşrindən bəri tarixi torpaqlarımız haqqında hazırlanmış məqalələrdə "erməni işğalına məruz qalmışdır" ifadəsini yazmaq mənəvi baxımdan nə qədər ağrılı idisə, biz indi həmin ifadələri silir, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qazanılmış şanlı Zəfərdən, Qarabağın azadlığından, müqəddəs torpaqlarımız uğrunda vuruşan qəhrəmanlardan bəhs edən yeni tarixi faktlardan söz açırıq. Bildiyiniz kimi, 44 günlük Vətən müharibəsi ilə bağlı yeni fəxri adlar, medallar, tarixi əhəmiyyətli müqavilələr, görüşlər var. Bir sıra yaşayış məskənlərinin adı elə döyüşlərin davam etdiyi dövrdə dəyişdirilib, hazırda həmin ərazilər sürətlə bərpa edilir, genişmiqyaslı tikinti-quruculuq işləri aparılır, yeni beynəlxalq hava limanları tikilir, ali təhsil ocaqları açılır, milli mədəniyyətimizlə bağlı müxtəlif beynəlxalq əhəmiyyətli festivallar keçirilir. Bütün bunlar isə, növbəti nəşrlər üzərində ciddi düzəlişlərin edilməsini tələb edir, qarşımıza böyük mənəvi öhdəliklər qoyur.

Hazırda milli ensiklopediyanın yenidən işlənmiş növbəti XIcildi çap prosesindədir. Nəticə olaraq qeyd edim ki, yeni cildlərdə Azərbaycanın tarixi Zəfəri ilə bağlı mühüm məqamlar yer alacaq. Ensiklopediyanın məzmunu daha da zənginləşdiriləcək, yeni nəşrlər milli kimliyimizi, qürurumuzu əks etdirəcək. Əlavə olaraq qeyd edim ki, 2025-ci ildə "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi tərəfindən hazırlanan "Heydər Əliyev Ensiklopediyası"nın ictimaiyyətə təqdim olunması nəzərdə tutulur. Hazırda ensiklopediya üçün məqalələrin hazırlanması prosesi sürətlə davam edir.

– Bəs ensiklopediya digər dillərə tərcümə olunacaqmı?

Azərbaycan Milli Ensiklopediyasının başqa dillərə tərcüməsinə gəlincə qeyd edim ki, biz 2012-ci ildə ensiklopediyanın rus dilində "Azərbaycan" adlı xüsusi cildinin nəşrinə nail olmuşuq. Lakin məlumdur ki, ensiklopediyanın tərcüməsi yüksək peşəkarlıq və təcrübə tələb edən bir işdir. Xüsusilə ingilis dilində tərcümə üçün mükəmməl baza olmalıdır. Təbii ki, biz bu istiqamətdə də işlərimizi davam etdiririk.

– Məlumdur ki, 2025-ci ilin mart ayında Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 ili tamam olur. Yubiley münasibətlə Milli Ensiklopediyanın xüsusi buraxılışı nəzərdə tutulurmu?

Bəli, gələn il Azərbaycanın ən böyük elm məbədi sayılanAMEA-nın 80 illik yubileyi mühüm elmi və mədəni hadisə kimi ölkəmizdə qeyd ediləcək. Əlbəttə ki, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi AMEA-nın nəzdində fəaliyyət göstərən bir qurum kimi bu möhtəşəm yubileyə xüsusi diqqətlə yanaşacaq. Hazırda yubileyə həsr olunmuş xüsusi bir nəşrin hazırlanması ilə bağlı rəsmi göstəriş və ya tapşırıq daxil olmayıb. Lakin belə bir qərar qəbul edilərsə, Ensiklopediya Mərkəzi yüksək səviyyədə hazırlıq işləri apararaq, yubiley buraxılışını təqdim edə bilər.

Xatırladım ki, 2008-ci ildə çap olunmuş ensiklopediyanın "Azərbaycan" adlı xüsusi cildində AMEA-nın yaranma tarixi, inkişaf mərhələləri, elmi nailiyyətləri, həmçinin bu sahədə fəaliyyət göstərən görkəmli alimlərin yaradıcılığı əks etdirilmişdir. Həmin nəşrdə "Elm. Texnika. Təhsil" bölməsi çərçivəsində "Təbiət və texnika elmləri" və "Humanitar elmlər və biliklər" mövzuları altında təqdim edilən məqalələrdə ölkəmizdə elmin müxtəlif sahələrinin formalaşması və inkişafı geniş şəkildə işıqlandırılmışdır. Həmçinin, AMEA-nın strukturunda yer alan elmi-tədqiqat institutlarının fəaliyyəti və onların töhfələri haqqında dolğun məlumatlar verilmişdir. Düşünürəm ki, həmin materiallardan istifadə etməklə, eyni zamanda, yubileyin əhəmiyyətini əks etdirən önəmli məlumatlar daxil olunmaqla xüsusi yubiley buraxılışını hazırlamaq mümkündür.

Güman edirəm ki, bu nəşr, həm AMEA-nın tarixi nailiyyətlərini, həm də onun Azərbaycan elminə və cəmiyyətinə verdiyi töhfələri əks etdirərək yubileyin əhəmiyyətini daha da artıra bilər.

– Hörmətli Tofiq müəllim, siz kimyaçı olmaqla yanaşı, ölkəmizdə maarifçilik fəaliyyəti ilə seçilən alimlərimizdənsiniz. Maraqlıdır, cəmiyyətdə maarifçilik ideyalarının yayılması sahəsində hansı problemlər var?

Maarifçiliyə gəlincə, mənim bu barədə mətbuatda, televiziya kanallarında çox çıxışlarım olub. Əslində maarifçilik elmin, təhsilin inkişafı ilə bağlı olan geniş bir məfhumdur. Müasir dövrdə təkcə Azərbaycanda deyil, bütün dünyada maarifçiliksahəsində müəyyən problemlər var. Biz kitabın öz yerini elektron informasiya vasitələrinə verdiyi bir dövrdə yaşayırıq. İndi cild-cild kitabları sürətlə yayılan məlumatlar, informasiya bolluğu əvəz edir. Təbii ki, bunun həm müsbət, həm də mənfi tərəfləri var. Məlumdur ki, müəyyən bir elm sahəsinə aid kitablar dərin araşdırmalar və daha ciddi materiallar əsasında hazırlanır. Lakin, internet resurslarında olan materiallar haqqında birmənalı olaraq bunu demək mümkün deyil.

Ona görə də, maarifçiliyin əvvəlki nüfuzunu geri qaytarmaq, miqyasını genişləndirmək üçün, ilk növbədə, kitablara, ciddi nəşrlərə marağı qaytarmaq vacibdir. Bunun özü də təhsilin səviyyəsi, təlim-tərbiyə ilə bağlıdır. Təhsil isə bütün mərhələlərdə ciddi elmi əsaslar üzərində qurulur. Gördüyünüz kimi, maarifçilik, təhsilin keyfiyyəti və elmin nüfuzu bir-biri ilə vəhdət təşkil edir. Maarifçiliyin inkişafı, elm və təhsilin nüfuzunun yüksəlişi həm də kütləvi informasiya vasitələri ilə də bağlıdır. Həm İnternetdə olan müxtəlif saytlar, xəbər resursları, həm də televiziya maarifçilik məqsədlərinə xidmət etməlidir.Televiziya verilişlərinin proqramları şou-əyləncə verilişlərindən ibarət olmamalıdır. Yaş həddi, xüsusiyyətləri və maraq dairəsi nəzərə alınmaqla elmi-kütləvi, elmi-publisistik verilişlərə genişyer verilməlidir. Belə verilişləri yeniyetmə və gənclər üçün müəyyən qədər əyləncəli-proqram layihələri kimi də hazırlamaq mümkündür. Qeyd etməliyəm ki, müasir dövrdə kitaba olan əvvəlki marağı qaytarmaq istiqamətində müxtəlif layihələr, tədbirlər gerçəkləşsə də, hələ ki, ciddi bir irəliləyiş hiss olunmur.Maarifçiliyin inkişafı, elmin və təhsilin nüfuzunun artırılması istiqamətində yalnız davamlı və kompleks tədbirlər həyata keçirməklə müsbət nəticələr əldə etmək mümkündür.

– Müasir dövrdə xüsusən gənclərin kimya elminə olan marağı sizi qane edirmi? Onları daha da həvəsləndirmək üçün hansı addımlar atılmalıdır?

– Mən uzun illər paralel olaraq pedaqoji fəaliyyətlə də məşğul olmuşam. Elmə olan marağın səviyyəsi 50 il əvvəlki həddə olmasa da, demək olmaz ki, bu gün gənclərin elmə marağı yoxdur. Elə olsaydı, təhsilin bütün pillələri üzrə yerlər dolmaz, müsabiqələrin keçirilməsi zərurəti yaranmazdı. Təhsilin ən yüksək pillələri üzrə xarici ölkələrin müxtəlif nüfuzlu universitetlərində təhsil almağa maraq göstərən gənclərimiz də çoxdur. Bu da onların elmi biliklərə və beynəlxalq təcrübəyə can atdığını göstərir. Mən ümumiyyətlə, istedadlı, savadlı gənclərimizə diqqət və qayğı göstərməyin, onlar üçün ölkəmizdə hər cür imkanların yaradılmasının tərəfdarıyam. Xaricdə təhsil alanların respublikamıza dönüb xüsusilə, ən yeni sahələr üzrə inkişafa xidmət etməsi ölkəmizin inkişafı baxımından da çox əhəmiyyətlidir.

Ardı Səh. 13

"Azərbaycan Milli Ensiklopediyasının yeni cildlərində mühüm məqamlar yer alacaq"

Əvvəli-Səh-12

Gənclərin elmə marağını artırmağın müxtəlif yolları var ki, onlardan biri də maddi maraq, yəni stimullaşdırma məsələsidir. Müxtəlif elm sahələri üzrə müsabiqələr, olimpiadalar, bilik yarışlarına və s. geniş yer verilməlidir. Yekun nəticələrin qiymətləndirilməsi şəffaf, obyektiv, həm də həvəsləndirici olmasa, bu təşəbbüslərin də bir önəmi olmayacaq.

Bundan əlavə, gənclərə elmin praktiki tərəflərini göstərmək, onları real layihələrə cəlb etmək, kimya və digər elmlərin gündəlik həyatımızdakı tətbiqlərini vurğulamaq çox vacibdir. Yekun olaraq qeyd edim ki, gənclərin elmə marağını artırmaq həm dövlətin, həm də cəmiyyətin üzərinə düşən bir vəzifədir.Gənclərə həm maddi, həm də mənəvi dəstək göstərməkləonların özlərini elm sahəsində reallaşdırmaları istiqamətindədaha böyük nailiyyətlər əldə etmək mümkündür.

– Bu gün Azərbaycanda alim və mütəxəssislərin əldə etdikləri nailiyyətlərin praktikada tətbiqi, daha dəqiq desək elmin kommersiyalaşdırılması sahəsində də müəyyən problemlər var. Bu barədə fikir və təkliflərinizi eşitmək istərdik.

– Bilirsiniz ki, alim və mütəxəssislərin qazandıqları nailiyyətlərin praktikada tətbiqi, yəni elmin kommersiyalaşdırılması, həmin nailiyyətlərin əhəmiyyəti və perspektivləri ilə birbaşa bağlıdır. Əgər bu nailiyyət həqiqətən böyük elmi və ya texnoloji önəm kəsb edirsə, onun tətbiqi üçün müvafiq mexanizmlər yaradılmalı, mövcud qaydalara uyğun maliyyələşdirilməli və müəllifin, yəni alim və mütəxəssisin əməyi layiqincə qiymətləndirilməlidir, Bu, bütün dünyada belədir.

Ölkəmizdə bu sahədə bir sıra problemlərin olduğunu demək mümkündür. Əsas çətinliklərdən biri elmi nailiyyətlərin praktikada tətbiqi üçün lazımi infrastrukturun və resursların yetərli olmamasıdır. Düşünürəm ki, bu sahədə olan problemlərin həlli üçün elm və biznes arasında əlaqələrin gücləndirilməsi, investisiya və dəstək mexanizmlərinin təkmilləşdirilməsi, patent və müəllif hüquqlarının qorunması, eyni zamanda elmi nailiyyətlərin tanıdılması və tətbiqi sahəsində maarifləndirmə işlərinin aparılması son dərəcə vacibdir. Lakin nəzərə almaq lazımdır ki, elmin kommersiyalaşdırılması təkcə alimlərin deyil, sahibkarların və cəmiyyətin birgə fəaliyyəti ilə mümkün olacaq bir prosesdir. Təklif edilən mexanizmlərin düzgün tətbiqi bu sahədə ciddi irəliləyişlərə yol aça bilər.

– Bəzən kimyanın cəmiyyətin, insanların həyatında rolu kifayət qədər qiymətləndirilmir. Hətta bu elmi dünyada böyük ekoloji problemlərin, bir çox xəstəliklərin yaranmasının əsas səbəbi hesab edirlər. Lakin, eyni zamanda, bu gün bəşəriyyət kimyadan sağlam ətraf mühit, unikal enerji mənbələri, effektiv dərman preparatları gözləyir. İstərdik ki, bu kimi mülahizələrə münasibət bildirsəniz.

– Bu sual olduqca geniş və çoxşaxəli mövzunu əhatə edir. Kimya elmi cəmiyyətin inkişafında əsaslı rol oynayır və onun təsir dairəsi olduqca genişdir. Həm fundamental, həm də tətbiqi elm olaraq, kimya insan həyatının müxtəlif sahələrində mühüm dəyişikliklərə səbəb olmuşdur və olmaqdadır. Bu gün deyə bilmərik ki, kimya elminin cəmiyyətdəki rolu yetərincə qiymətləndirilməyib. Əgər belə olsaydı, dünya miqyasında böyük sənaye şəhərləri, texnologiya mərkəzləri və müasir innovativ qurğular yaranmazdı. Kimya həm üzvi, həm də qeyri-üzvi istiqamətdə inkişaf etməklə yanaşı, texnologiya ilə sıx bağlı olan bir elm sahəsidir. Bu əlaqə neft-qaz sənayesindən tutmuş nanotexnologiyalara qədər müxtəlif istiqamətlərdə özünü göstərir. Burada səhiyyə, dərman preparatları və s. üzrə dünyada əldə edilən nailiyyətlər xüsusi əhəmiyyət daşıyır.

Ekologiyaya gəlincə, müasir dövrdə dünya miqyasında "0" tullantı üzrə çox böyük beynəlxalq layihələr həyata keçirilir. Azərbaycanda hələ sovet dövründə, 50-ci illərin ortalarında akademik Murtuza Nağıyev xammaldan "0" tullantı ilə istifadə məqsədi daşıyan, son 2000 ildə kimya elminin nailiyyətlərindən sayılan "resirkulyasiya nəzəriyyəsi"ni yaratmışdı. Sumqayıt kimi kimya şəhəri olan respublikada ekoloji problemlər artıq 1960-ci illərdən gündəmdə idi. Azərbaycanlı akademik M.Nağıyev böyük uzaqgörənliklə deyirdi ki: "Elmi-texniki inqilab o səviyyəyə çatmışdır ki, hər kəs Yeri gözünün qabağında canlandırdığında belə, orada dənizlərin, okeanların və qurunun imkanlarının necə tükəndiyini dərk edərək, məhz insanların yüzlərlə təşkilatsız fəaliyyəti nəticəsində onun sakinlərinin həyatı təhlükəyə məruz qaldığını təsəvvürünə gətirə bilər. Vaxtdır, biz dərindən anlamalıyıq ki, hamımız Yerin – çox da böyük olmayan kosmik gəminin sərnişinləriyik və bizim taleyimiz məhz özümüzdən asılıdır. Aydın olur ki, elmi-texniki inqilabın uğurları özözlüyündə insanları xoşbəxt edə bilmir Elmi-texniki tərəqqinin mənfi nəticələri ondan ibarətdir ki, hər şeyi insan üçün yaratmaq əvəzinə, tərəqqi müəyyən mənada insanın özünü "sıxıb-sümürür".

Əlavə olaraq qeyd edim ki, Azərbaycanda bu istiqamətdə tədqiqatların əsası təxminən 1970-ci illərdə qoyulmuşdur. Hazırda dünya miqyasında qəbul olunmuş "yaşıl kimya" üzrə tədqiqatlara respublikamızda elə həmin dövrlərdə başlanmışdı.

Məlumdur ki, Azərbaycanda mühüm tarixi əhəmiyyəti olan COP29 tədbiri yüksək səviyyədə keçirildi. Əminliklə deyə bilərik ki, dünyanın əksər ölkələrinin iştirak etdiyi bu mötəbər beynəlxalq toplantı Azərbaycanın ekoloji problemlərin həlli istiqamətində göstərdiyi səylərin dünya ictimaiyyəti tərəfindən qəbul edildiyini təsdiq edir. Çünki, respublikada ekoloji problemlər dövlətin nəzarəti altında olmasaydı, belə bir qlobaltədbirin təşkili mümkün olmazdı.

Yekunda vurğulamaq istərdim ki, bu gün dövlətimizinqarşısında duran əsas vəzifələrdən biri, ekoloji problemlərin yalnız milli deyil, həm də regional həllini təmin etməkdir. Həmçinin işğaldan azad edilmiş ərazilərdə torpaqların kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasına aid edilməsi, meşə fondunun və ümumilikdə təbii potensialın bərpası ölkəmiz üçün prioritetlərdən biridir. Kimya elmi və onun tətbiqləri bu proseslərin hər birində əsas rol oynayacaq. Düşünürəm ki,kimyanın cəmiyyətə və təbiətə təsiri balanslı şəkildə dəyərləndirilməli və onun potensialından səmərəli istifadə olunmalıdır.

– Tofiq müəllim, maraqlı müsahibəyə görə təşəkkürümü bildirirəm!

Müsahibəni apardı:
Nərgiz QƏHRƏMANOVA,

AMEA-nın Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin Elektron informasiya sektorunun müdiri.

"Akım"ların arxasındakı axın...

Mətanət Məmmədova

Bu günlər yenə də sosial şəbəkələrdə "trendlərlə" qarşılaşmaqdayıq. Bir qədər əvvəl insanlar məlum serialın təsirindən, yox, yox, təsir nədir, oradakıları təqlid edərək özlərini döyməyə, söyməyə başladılar. Məşhurlar qaldı, bloqer, artist, müğənni, aparıcı, sadə sosial şəbəkə iştirakçısı qaldı, hamı özünü döydü, pəncərədən atmaq istədi. Bu "trend akım" başa çatar-çatmaz, digəri çıxdı meydana və tələbələr müəllimlərinin ovcuna şirniyyat qoyub video çəkib paylaşmağa başladılar. Müəllimlərdən bu "akım"dan təsirlənəni də oldu, gözləri yaşla dolanı da. Hətta daha sonra müəllimin ovcuna şirniyyat nədir, qoyun, toyuq, hind quşu qoyun, deyib, bu "trendi" məsxərəyə qoyanlar da oldu. Lakin bunu da hər kəs öz düşüncəsi çərçivəsində anladı. Və daha nələr, nələr...

Sosial şəbəkələrdə "akım" edənlərin kimliyindən, nəçiliyindən asılı olmayaraq görəsən bizə nə gəlib ki, bütün "akım"ların arxasınca düşürük? Bu "akım"lar bizi asanlıqla arxasına alıb hara aparır?

Müəllimə yeri gələndə salam verməyən, dərs zamanı onun müəllimliyinə hörmət bəsləyib sakitliyə riayət etməyən, sağı-solu ilə söhbətdə olan, telefonda sosial şəbəkələri gəzib, bax, bu cür "akım"ları izləyərək öz-özünə gülümsəyən çoxsaylı tələbələr var. İndi onlar bu yeni "akım"a qoşulub yeni bir axın yaradıblar.

Hər saniyədəbir qarşımıza çıxan bu "akım"lar axı bizim əsəblərimizi alt-üst edir. Düşünürsən ki, İlahi, hər hansı ölkədə bir nəfər bir hərəkət etdi, arxasınca belə axın gələcək? Minlərlə insan "trend" olmaq, özünü göstərmək, sosial şəbəkə fenomeninə çevrilmək üçün dəridən-qabıqdan çıxacaq?

Təəssüf... Görəsən biz nə etmək istəyirik? Nəyin arxasınca qaçırıq, haraya çatmaq istəyirik, bu, məlumdurmu? Hər gün sosial şəbəkələrdə yayınlanan, gənclərin dili ilə desək, "akım"ın arxasına düşüb hara gedirik?

Müəllimə şirniyyat, yoxsa hörmət, sayğı lazımdır? Vallah ona lazım olan hörmətdən, sayğıdan savayı bir şey deyil. Bəlkə bu barədə düşünün bizim gənclə... Bəlkə bu akımların yerinə hərməti, syğını qoysunlar.

Müəllimin bu gün adını onsuz da ismin 6 halında hallandırmışıq. Onu "kobudluqda", uşağa "səsini kəs, yerinə otur", "ay bala, pəncərəyə yox, sinfə bax", "fikrin haradadır?", "çəkil o yana", qaçma, dərsdə danışma, ayağını partanın üstünə qoyma, yanına sal deməkdə günahlandırmışıq. Demişik ki, bizim uşaqlarımızın hüquqları var, sən ona "o yana çəkil" deyə bilməzsən.

Bəziləri müəllimi sosial şəbəkələrdə öz ağıldərrakəsi ilə eyni olanlarla birlikdə müzakirəyə qoyur, özləri qərar verir, fikir söyləyirlər. Lakin evlərində uşaqlarını qarşılarına qoyub "ay bala, görürsən, evdə iki bacı-qardaşsınız, mən sizinlə bacarmıram, sinifdə 30 uşaq var, müəllim nə etsin bəs sizinlə? Sakit oturun, səs salmayın, müəllimə hörmət edin",- deyən az sayda valideyn var.

Bax, hələ azını dedim. Günlərlə danışmaq olar bu mövzuda. Belə olan halda müəllimə şirniyyat, lazımdır, yoxsa hörmət, sayğı? Biz hansısa bir "akım"ın ardınca axına düşüb getməliyik, yoxsa öz ağlımızı qarşımıza qoyub ona öyüdnəsihət verib onun axını ilə hərəkət etməliyik?

Hər gün bir "akım", ardınca da insanların axın-axın təqlidi. Bu nə həyatdır yaşayırıq biz, İlahi...

Bəşəriyyət yeni təhlükə qarşısındadır

Erməni terror təşkilatları bəşəriyyəti növbəti terror aktları ilə hədələyir

Dünya tarixində elə şəxslər, hətta millətlər var ki, onların adı çəkilində göz önünə soyqırımı aktları, kütləvi insan qətlləri, şəhərlərin, qəsəbə və kəndlərin dağıdılması, tarixi, memarlıq nümunələrinin yer üzündən silinməsi gəlir. Mao Çzedun, İosif Stalin, Xorxe Videla, Auqusto Pinoçet, Nikolae Çauşesku, Fidel Kastro, Adolf Hitler, Pol Pot, Kim İr Sen, Hüseyn, Bəşər Əsəd və digərlərinin adı çəkiləndə, eləcə də sosial şəbəkələrdə qarşına çıxanda, KİV-də rastına gələndə ətin ürpəşir, bu vəhşilərin insan qatilləri olduğunu dodaqucu pıçıldayırsan. Erməni adı gələndə uşaq qatili, qocalara, qadınlara rəhm etmədən amansız işgəncələrlə öldürən toplum göz önünə gəlir. Erməni yeganə toplumdur ki, terroru həyat amalı, yaşam tərzi hesab edir. Bu baxımdan da Cənubi Qafqaza, xüsusilə də Azərbaycan ərazilərinə köçürülüb, bir qədər möhkəmləndikdən sonra məkrli məqsəd və çirkin niyyətlərini reallaşdırmaq üçün terror təşkilatları yaradıblar. 1723-cü ildən Rusiyanın hakim

zümrəsinin hərbi-siyasi dəstəyi ilə yaradılan erməni terror təşkilatları qısa müddət sonra ən təhlükəli terror təşkilatına çevrilmişdir. Əsasən azərbaycanlıları və türkləri hədəf seçən erməni terror təşkilatları indiki Azərbaycan torpaqlarında yaradılan farsmolla rejimindən və Rusiyanın müəyyən dairələrindən aldıqları dəstək hesabına Türkiyədə və Azərbaycanda ardıcıl terror aktları həyat keçirmişlər. 1885-ci ildə yaradılan "Armenakan" erməni teror təşkilatı Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədərək yüzlərlə insanın ölümünə nail olmuşlar. 1887-ci ildə Cenevrədə yaradılan "Hnçak" erməni terror partiyası Türkiyənin Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanları adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmağa ümid etmişlər. Terror təşkilatının proqramının 4-cü bəndində yazılır: "Qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir". 1890-cı ildə Tiflisdə yaradılan "Daşnaksütyun" terror təşkilatının əsas məqsədi Azərbaycanın Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaq olub. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra "Daşnaksütyun" "türkü, azərbaycanlını hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmrini vermişdir. "Daşnaksütyun" partiyası tərəfindən yaradılan bir sıra terror qrupları mövcuddur: 1973-cü ildə fəaliyyətə başlamış "Erməni soyqırımının intiqamçıları" qrupu 1980-82-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirib.

Erməni terror təşkilatları on minlərlə insanın həyatına son qoyub

"Erməni gizli azadlıq ordusu" (ASOA): 1975-ci ildə Beyrutda yaradılıb. Mənzil-qərargahı Dəməşqdə yerləşir. Fələstin bazalarında hazırlıq keçən mindən artıq döyüşçüsü vardır. Təşkilat fəaliyyətinin ilk 6 ilində dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib."Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA): 1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaqdır. ASALA əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Təşkilatın "Əbu Nidal", "Qara sentyabr" kimi terror qrupları ilə əməkdaşlıq etməsində əsas fiqurlardan biri ASALA-nın lideri Akop Akopyan olmuşdur. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş A.Akopyan 01.08.80-ci ildə "Nyu-York Tayms" qəzetinə verdiyi müsahibədə bildirmişdir: "Bizim düşmənimiz türk rejimi, NATO və bizlə əməkdaşlıq etməyən ermənilərdir". "ASALA" 1980-ci ilin aprelində birgə terror aksiyalarının keçirilməsinə dair "PKK" ilə razılığa gəlmiş və bu niyyətlərini Livanda rəsmiləşdirmişlər. Beyrut şəhərində 28.08.1993-cü ildə açıqlanan bəyanatında ASALA "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdir. Eyni zamanda erməni terror təşkilatları sırasında amansızlığı ilə "Geqaron", "Erməni azadlıq hərəkatı", "Erməni azadlıq cəbhəsi", "Orli qrupu", "Erməni soyqırım ədalət komandosları", "Erməni birliyi", "Demokratik cəbhə", "Apostol" və digərləri yer alırlar. Heç şübhəsiz ki, 30 illik erməni işğalı nəticəsində Azərbaycanın şəhər və qəsəbələrinin dağıdılmasında, mədəniyyət nümunələrinin, tarixi abidələrinin, məscidlərinin, mədrəsələrin, məbədlərin yerlə-yeksan edilməsində sözügedən terror təşkilatların xüsusi rolu olub. Erməni terrorçuları pula keçən, zövqlərinə uyğun olanları talan edərək Ermənistana aparıblar. Sonradan isə müxtəlif yollarla ABŞ-a, Hindistana, Fransaya, Yunanıstana, Kanadaya, Livana və digər ölkələrə daşıyaraq, dəyər-dəyməzə satıblar. Erməni vəhşi toplumu Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri, ümumilikdə 67 məsciddən 65-ni tamamilə məhv edib, digər 2-ni isə müxtəlif iyrənc məqsədlər üçün istifadə edib. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur. Ermənistan terrorçularının təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır. Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bu vəhşilik, vandalizm ancaq erməni terrorçularına xas xüsusiyyətdir. Digər millətlər, hansısa toplumlar tərəfindən belə bəşəri cinayətlərin törədilə biləcəyi təsəvvür edilmir.

Erməni vəhşi toplumu Qərbi Azərbaycanda bizlərə məxsus irsi də dağıdıb

Mövcud araşdırmalarla sübuta yetirilir ki, erməni vəhşiliyi yalnız Qarabağın və ətraf rayonların işğalı zamanı tarixi, memarlıq nümunələrinin dağıdılması, talan edilməsi ilə yekunlaşmır. Bu vəhşi toplum hələ ötən əsrin əvvəllərindən, sonrakı mərhələdə isə ötən əsrin 88-ci ilin əvvəllərindən başlayaraq tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda bizlərə məxsus irsi də dağıdıb yer üzündən silib. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 491 məscid fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə azərbaycanlıların sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Camə məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib. Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Qala da bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Hələlik isə ermənilərin viran etdikləri ərazilərin bərpası istiqamətində sistemli və sürətli işlər aparılır. Şuşanın erməni terrorçu birləşmələrindən azad edildiyi gün Fateh Sərkərdə, Prezident İlham Əliyevin xalqa təbrik müraciətində demişdir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!".

Fateh Sərkərdə, Prezident İlham Əliyevin dediyi kimi, Şuşa dirçəlir, qurulur, bərpa edilir. Artıq dağıdılmış dini mərkəzlərimiz bərpa və təmirdən sonra istifadəyə verilib. İşğaldan azad edilən ərazilərdə aparılan təmir, tikinti, bərpa işlərindən sonra qayıdan insanlar arasında şuşalılarda var. Cari ilin mayın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə ilk yaşayış kompleksinin açılışı olub. Yaşayış kompleksində ilk olaraq 20 ailə, o cümlədən 88 nəfər yerləşib. 23 dörd mərtəbəli binadan ibarət yaşayış kompleksi 8 hektar ərazidə inşa edilib. 450 mənzildən, o cümlədən 28 ədəd birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beş otaqlı mənzildən ibarətdir. Müvafiq olaraq 300 və 500 mənzildən ibarət ikinci və üçüncü yaşayış kompleksinin tikintisi planlaşdırılır. Azərbaycanın mədəniyyət paytaxtı, qədim şəhərimiz Şuşada bu günə qədər çoxsaylı yerli və beynəlxalq miqyaslı konfranslar, seminarlar, festivallar keçirilir. Bütün bunlar bir daha Şuşamızın Qafqazın incisi, Qarabağımızın baş tacı olduğunu təsdiqləyir.

İşğaldan azad edilən Qarabağımız yenidən qurulur və inkişaf edir. Bununla Azərbaycan bir daha dünya birliyinə, xalqlarına nümayiş etdirir ki, biz düşmənə döyüş meydanında vurduğumuz zərbə ilə işğal altında olan torpaqlarımızı azad etdiyimiz kimi ərazilərin bərpası ilə də böyük qələbələri davam etdirməyi bacarırıq.

İLHAM ƏLİYEV

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.

Sergey Markov: "2025-ci il Rusiya, Azərbaycan və Ermənistan üçün fürsət ili olacaq"

Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov "Moskva-Baku" portalına müsahibəsində 2025-ci ildə Cənubi Qafqazda vəziyyətin inkişaf perspektivləri ilə bağlı proqnoz verib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.

MÜSAHİBƏ

- Gələn il Cənubi Qafqazı hansı çağırışlar, risklər, yeni imkanlar gözləyir?

- İnanıram ki, gələn il Cənubi Qafqazda və ümumilikdə geosiyasi vəziyyətdə çox şey Rusiya ilə ABŞ arasında münasibətlərdən, yeni seçilmiş prezident Donald Trampın beynəlxalq vəziyyətin müxtəlif aspektləri ilə bağlı hansı mövqedən çıxış etməsindən asılı olacaq.

Tramp üçün Cənubi Qafqaz prioritetlər baxımından periferik olacaq. O, Cənubi Qafqaza fəal təsir göstərməyəcək. Bu da region üçün yaxşıdır. ABŞ-ın Aİ ilə birlikdə Baydenin rəhbərliyi altında Zaqafqaziyada Rusiyaya qarşı Ermənistanı dəstəkləmək və Gürcüstanda sabitliyi pozmaq üçün çox işlər gördüyü səbəbindən yaranmış olan gərginlik azalacaq. Azərbaycana təzyiq olanda da Bakı ilə Vaşinqton arasında münasibətlər, İlham Əliyevin özünün də əvvəllər qeyd etdiyi kimi, gərginlik yaşayır.

Donald Tramp Rusiya ilə münasibətləri yaxşılaşdırmağa çalışacaq. Və əgər o, Ukrayna ətrafındakı vəziyyətin həllinə kömək edə bilsə, o zaman Moskvanın Cənubi Qafqazda daha çox fəallıq üçün imkanları daha da artracaq. Bu o deməkdir ki, Azərbaycanın regionda mövqeyi güclənəcək, çünki Rusiya Federasiyası regionda Azərbaycanla faktiki müttəfiqlik münasibətlərinə malikdir. Və bu və ya digər dərəcədə Rusiyanın Ermənistanla böhranlı münasibətləri davam edəcək.

Məlumdur ki, Fransa prezidenti Emmanuel Makron Zaqafqaziyada aktiv siyasət yürütməyə çalışır. Lakin Trampın Fransa prezidentinə qarşı kifayət qədər tənqidi münasibəti var. Onların arasında ziddiyyətli münasibətlər isə Makronun Cənubi Qafqazdakı fəaliyyətinin azalmasına səbəb ola bilər. Bu mümkün olsa da, əksinə, ABŞ-ın regiona diqqətinin azalması fonunda Paris bütün Qərb ölkələrinin regionda maraqlarının təşviqində lokomotivinə çevriləcək. Və bu, aktiv şəkildə nümayiş etdiriləcək, silah tədarükü davam edəcək, Makron vəziyyəti elə göstərəcək ki, guya Ermənistanı Avropa İttifaqına daha da yaxınlaşdırmaq üçün hər şeyi edir. Bütün bunları təbii ki, region üçün çağırışlar adlandırmaq olar. Əbəs yerə deyil ki, Bakı mütəmadi olaraq Parisə və ümumilikdə Qərb ölkələrinə xəbərdarlıq edir ki, onlar nəhayət Ermənistanı hərbiləşdirməyə son qoysunlar. Təbii ki, Azərbaycan bunu düşünülmüş təxribat kimi qələmə verir. Axı Ermənistan işğalçı dövlətdir. Bu o deməkdir ki, belə bir dövlətin bir dəfə etdiyinə bir daha cəhd edilməyəcəyinə zəmanət yoxdur.

Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, Trampın çevrəsində kifayət qədər çox erməni lobbiçi var. Bu isə Tramp administrasiyasının "periferiyasında" ermənipərəst təxribat fəaliyyətinə töhfə verə bilər. Yəni, seçilmiş prezidentin administrasiyasındakı məmurlardan biri Zaqafqaziyada heç onunla razılaşdırılmayan bir şeyin arxasınca düşə bilər. Trampın dövründə bu dialektikanın belə olacağını gözləmək olar: gəlin Cənubi Qafqaza keçək, Ermənistanı Rusiyadan uzaqlaşdıraq ki, Moskvaya pis nəsə edək və bunun üçün Azərbaycanla da dalaşaq, düzdür, bu, çətin ki, ciddi nəticə versin, amma heç olmasa Rusiya və Azərbaycanın mövqeyi əhəmiyyətli dərəcədə zəifləyə bilər.

Anlamalıyıq ki, regiondakı vəziyyətə ABŞ-la Türkiyə, Tramp və Ərdoğan münasibətləri də təsir edə bilər. Tramp və Ərdoğan sərt adamlardır. Bir-birlərinə hörmət edirlər. Amma son nəticədə Amerika-Türkiyə münasibətləri ya dostluq, ya da çəkişmələr və qarşıdurmalar şəklini alacaq. Amma həm Tramp, həm də Ərdoğan suverenlik tərəfdarı olduqlarına və hər ikisi Avropa bürokratiyasını tənqid etdiyinə görə, iki lider arasında anlaşılmazlıqdan daha çox qarşılıqlı anlaşma üçün əsas var.

Bundan əlavə, buraya Yaxın Şərqdəki vəziyyət əlavə olunur. Tramp siyasi istiqaməti üçün, görünür, bu region ənənəvi olaraq Transqafqazdan daha yaxın olacaq. O, şübhəsiz ki, İsrailin İrana qarşı sərt addımlarını dəstəkləyəcək. Və bu, İsrailin İslam Respublikasına qarşı hərbi əməliyyatına səbəb ola bilər. Bu isə Cənubi Qafqaz üçün ciddi çağırışdır.

- Bəs Tramp dövründə ABŞ-ın Ermənistana dəstəyi əhəmiyyətli dərəcədə azalsa, Nikol Paşinyan nə edəcək?

- Paşinyan fasilə verə bilər. Yaxud Qərbdə dəstək qazanmaq və Bakı ilə sülh sazişi üzrə real danışıqlar masasına əyləşmək cəhdlərindən məyus ola bilər. Beləliklə, növbəti ilin qlobal və regional münaqişələrdə sülhün bərqərar olunmasında müsbət il, fürsət ili olacağı proqnozlaşdırılır. Burada bir çox amillər rol oynayacaq. Ancaq üstünlük verilən mesaj müsbətdir. Xüsusilə də Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün ilkin şərtləri təmin edir.

Unutmaq olmaz ki, Azərbaycan prezidenti ABŞ-ın daxili işlərinə qarışmadan yumşaq formada Amerika seçkiləri öncəsi Tramp haqqında çox müsbət fikirlər səsləndirdi. Bu isə o deməkdir ki, Tramp Azərbaycana müsbət münasibət bəsləyir.

Amma Paşinyan daha çox demokratlarla ortaq dil tapır. İlham Əliyev - Nikol Paşinyan cütlüyündə isə Tramp Azərbaycan prezidenti ilə münasibətlərə üstünlük verir və ona hörmətlə yanaşır.

Gələn il Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanması ehtimalı da var. Amma məsələ İrəvanın Azərbaycana qarşı ərazi iddialarını Ermənistan Konstitusiyasından çıxarmasındadır. Paşinyan Konstitusiyaya dəyişikliklərlə bağlı referendum keçirsə, o zaman Bakı ilə İrəvan arasında sülh imzalanacaq.

- Paşinyan qərbyönlü vektorunu davam etdirəcəkmi?

- Bu dəqiq məlum deyil. O, əlbəttə, ideoloji baxışlarında qərbyönlü vektoru davam etdirəcək. Paşinyan hələ də Qərbdən real dəstək gözləyir. Trampın gəlişi ilə, dediyim kimi, Rusiyanın Qərblə problemlərinin azalması ehtimalı var. Və o zaman Paşinyan Qərbin onu dəstəkləməməsindən məyus olmalı olacaq. Beləliklə, Ermənistanın baş nazirinin Moskva, Vaşinqton və Brüssel arasında oynamağa davam etməkdən başqa yolu qalmayacaq. Bundan əlavə, çox güman ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmayacaq.

Qərb liderlərinin əsas marağı Ermənistanın KTMT-dən çıxması deyil, İrəvanın özlərinin agenti olması və KTMT-ni daxildən məhv etməsidir.

Bütün bunların fonunda Azərbaycan Cənubi Qafqazda yeganə sabit dövlət olaraq qalır. Və gələn il bununla bağlı heç nə dəyişməyəcək. Bakı isə öz gündəmini irəli sürən dövlət, fəal, təşəbbüskar, əsasən gündəmi yaradan, eləcə də xarici çağırışlara cavab verən dövlət mövqeyində qalacaq və beynəlxalq statusunu yaxşılaşdırmağa davam edəcək.

Tərcümə - Elçin Bayramlı

SON SƏHİFƏ
SƏS
14 dekabr
2024-cü il

2025 hansı bürclər üçün ən uğurlu il olacaq? - DİQQƏT!

2025-ci il xüsusilə bəzi bürclər üçün uğurlu olacağını vəd edir. SİA xəbər verir ki, ulduzlar onlar üçün parlaq dəyişikliklər, mühüm nailiyyətlər və maksimum potensiallarını reallaşdırmağa kömək edəcək əlverişli imkanlar hazırlayıblar.

Qoç

Qətiyyətiniz və enerjiniz mükafatlandırılacaq - ulduzlar karyeranızda və şəxsi nailiyyətlərinizdə uğur vəd edir. Yəqin ki, çoxdan gözlənilən bir layihəyə başlayacaqsınız və ya layiqli tanınma alacaqsınız. Bu il iddialı məqsədləri həyata keçirmək vaxtı olacaq.

Şir

Şirlər üçün 2025-ci il parlaqlıq və şöhrət dövrü olacaq. Səyləriniz və istedadlarınız nəzərə çarpacaq və ətrafınızdakılar səylərinizi dəstəkləməyə hazır olacaqlar. Yaradıcılıq, karyera və sosial əlaqələrin möhkəmləndirilməsi üçün ideal ildir. Uğurlar bütün səylərinizdə sizi müşayiət edəcək, xüsusən də inam və əzmkarlıq göstərsəniz.

Tərəzi

Tərəzi 2025-ci ildə harmoniya və firavanlıq yaşayacaq. Bu zaman şəxsi və peşəkar sahədə tarazlıq gətirəcək. Diplomatiyanız və insanlarla ortaq dil tapmaq bacarığınız mühüm məqsədlərə çatmağınıza kömək edəcək. Səyahət və ya həyatınızda əsas rol oynayacaq yeni tanışlıqlar üçün fürsət yarana bilər.

Oxatan

Oxatan üçün 2025-ci il macəra və üfüqlərin genişlənməsi dövrü olacaq. Səyahət edərkən, təhsil alarkən və ya həyat kursunuzu dəyişdirərkən şans sizi müşayiət edəcək. Siz yeni nailiyyətlərə doğru irəliləməyə imkan verəcək enerji və inam dalğası hiss edəcəksiniz. Bu il sizə çoxlu parlaq təəssüratlar bəxş edəcək.

Oğlaq

2025-ci il Oğlaqlar üçün əhəmiyyətli irəliləyişlər dövrü olacaq. Əvvəllər göstərdiyiniz səylər bəhrəsini verməyə başlayacaq. Mühüm karyera nailiyyətləri və ya maliyyə sektorunda uğurlar mümkündür. Bu həm də şəxsi münasibətləri gücləndirmək və həyatda sabitlik yaratmaq üçün əlverişli zamandır.

Balıq

2025-ci ildə Balıqlar ilham dalğası və köhnə xəyalların həyata keçməsini yaşayacaqlar. Bu il yaradıcı layihələr və mənəvi yüksəliş üçün xüsusilə uğurlu olacaq. Özünüzü ifadə etməyin yeni yollarını tapa bilərsiniz və ya istəklərinizi dəstəkləyəcək insanlarla tanış ola bilərsiniz. Açıqlıq və intuisiya əsas müttəfiqləriniz olacaq.

Ardanın yeni mövsümdə oynayacağı klub bəlli oldu

Karlo Ançelottinin rəhbərliyi altında "Real Madrid"in start heyətində az oyun şansı əldə edən Arda Gülerin klubdakı karyerası müzakirə edilir.

Milli.Az xəbər verir ki, dünyaca məşhur italyan jurnalist Fabrizio Romano Ardanın növbəti mövsümdə oynayacağı komandanı açıqlayıb. Bununla bağlı Romano X-də paylaşım edib. Onun sözlərinə görə, Arda "Real"da qalmaq istəyir. Bildirilir ki, həm klub rəhbərliyi həm də işçiləri Ardanın istedadına güvənir. Məlumata görə, klub rəhbərliyi Ardanın klubda mühüm fiqur olacağını hesab edir. Xəbərdə deyilir ki, Arda üçün bir sıra təkliflər olsa da, onun başqa kluba transferi mümkün deyil.

Qeyd edək ki, bundan əvvəl Arda Gülerin mövsümün fasiləsində icarə əsasında başqa kluba getmək istədiyi iddia edilmişdi. İddialara görə, Arda mövsümün sonuna qədər əsas heyət oyunçusu ola biləcək klubda futbol oynamaq istəyir.

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

Sürücülər üçün vacib bir qayda...

Sürücülər çox vaxt sükan arxasına keçməzdən əvvəl bədəni spirtdən tamamilə təmizləmək üçün nə qədər vaxt lazım olduğunu düşünürlər.

SİA-nın həkimlərdən əldə etdiyi məlumata görə, alkoqolun xaric olma müddəti orqanizmin fərdi xüsusiyyətlərindən və sərxoşluğun miqdarından asılıdır.

...Deməli, bədənin spirti emal etdiyi orta sürət saatda təxminən 20 mililitr saf etanoldur. Məsələn, spirt tərkibi 5 faiz olan 500 ml pivənin tamamilə xaric olması üçün təxminən 6-8 saat vaxt lazımdır.

Bu, axşam içki içdikdən sonra təhlükəsiz səhər sürmək üçün ən azı 7-8 saat tam gecə yuxusunu zəruri edir.

Mütəxəssislər vurğulayırlar ki, universal tövsiyələr ola bilməz, çünki maddələr mübadiləsi sürəti bədən çəkisi, yaş, sağlamlıq vəziyyəti və etnik xüsusiyyətlərdən asılıdır. Məsələn, şimal xalqları arasında fermentativ sistemin xüsusiyyətlərinə görə spirtin emalı daha uzun çəkir.

Bundan əlavə, spirtin bədəndən tamamilə çıxarılması ilə belə, baş ağrısı, enerji itkisi və konsentrasiyanın azalması kimi asma simptomları mümkündür.

Bu amillər sürücünün reaksiyasını poza və sürücülük təhlükəsizliyinə təsir göstərə bilər.

Ona görə də həkimlər axşam içkisini minimuma endirməyi və yalnız riyazi hesablamalara deyil, həm də öz rifahınıza diqqət yetirməyi məsləhət görürlər.

Nazlı Almuradova

ELAN

Yeni Azərbaycan Partiyası tərəfindən 2012-ci ildə Səlimov Vüqar Vasif oğluna verilmiş 597900 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Yeni Azərbaycan Partiyası tərəfindən 2014-cü ildə Məmmədov Teymur Ağakərim oğluna verilmiş 667232 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700